**AZƏRBAYCAN RESPUBLİKASI**

**“GƏLƏCƏYİN KİTABXANASI”
İCTİMAİ BİRLİYİ**

*ISSN (ISSN-L): 2959-1694*
*ISSN (Online): 2959-1708*

DOI 10.5281/zenodo.17566397

# KİTABXANA.AZ

**ELMİ-NƏZƏRİ VƏ TƏCRÜBİ JURNAL**

*Jurnal 2008-ci ildən nəşr olunur.*
*İllik dövriyyəsi ildə iki dəfədir (aprel-oktyabr).*

# №2(41) * Oktyabr

**Seriyanın istiqamətləri:**

- Tarix elmi
- Humanitar və sosial elmlər tarixi
- Kitabxana işinin tarixi
- İnformasiya və sənəd menecmenti
- Kitabşünaslıq və nəşriyyat işinin tarixi

**Indexed in**

OpenAIRE

**Bakı – 2024**

**Təsisçi və baş redaktor:** **Şəfəq İSLAMOVA**
tarix üzrə fəlsəfə doktoru

**Redaktor:** **Eldəniz MƏMMƏDOV**
tarix üzrə fəlsəfə doktoru

**Redaksiya heyəti:**
**Xəlil İSMAYILOV**, tarix elmlər doktoru, professor
**İkram AĞASİYEV,** tarix elmlər doktoru, professor
**İlqar NİFTƏLİYEV,** tarix elmlər doktoru, dosent
**Cəbi BƏHRAMOV,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevda XƏLƏFOVA,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Pərviz KAZIMİ,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Tahirə ALLAHYAROVA,** fəlsəfə elmlər doktoru, professor
**Rəsmiyyə ABDULLAYEVA**, iqtisad elmlər doktoru, dosent
**Ələmdar BAYRAMOV,** filologiya üzrə fəlsəfə doktoru, dosent
**Elçin ƏHMƏDOV,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Knyaz ASLAN,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Hasan KESEROĞLU,** İnformasiya və sənəd menecmenti professoru (Kastamonu Universiteti, Türkiyə)
**Gülər DƏMİR,** İnformasiya və sənəd menecmenti dosenti (Kastamonu Universiteti, Türkiyə)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə **№ 2492**. Qeydiyyat tarixi **16.01.2008**.

---

**Redaksiyanın ünvanı:** AZ 1096, Bakı şəhəri, K.Balakişiyev küçəsi 43/15
**Telefonlar:** (+994 12) 539 30 21 (122); (+994 50) 558 98 59
**E-mail:** shafaq.ace@gmail.com
Jurnal **"Füyuzat MMC"** Nəşriyyat və Poliqrafiya Mərkəzində nəşr olunur.

**© "Gələcəyin kitabxanası" İctimai Birliyi, 2024**
**© Kitabxana.az, 2024**

**REPUBLIC OF AZERBAIJAN**
**АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА**

**"THE LIBRARY OF FUTURE" PUBLIC UNION**

**«БИБЛИОТЕКА БУДУЩЕГО» ОБЩЕСТВЕННОЕ ОБЪЕДИНЕНИЕ**

***ISSN (ISSN-L): 2959-1694***
***ISSN (Online): 2959-1708***

# KİTABXANA.AZ

**SCIENTIFIC - THEORETICAL AND PRACTICAL JOURNAL**

The journal has been published since 2008. Annual turnover is twice a year (april-october).

# KİTABXANA.AZ

**НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ**

Журнал издается с 2008 года. Годовой оборот два раза в год (апрель-октябрь).

# October * №2(41) * Октябрь

**Series directions:**
- ➢ History science
- ➢ History of humanities and social sciences
- ➢ History of librarianship
- ➢ Information and document management
- ➢ History of bibliology and publishing

**Направления серии:**
- ➢ Историческая наука
- ➢ История гуманитарных и социальных наук
- ➢ История библиотечного дела
- ➢ Информационный и документный менеджмент
- ➢ История книговедения и издательского дела

**Baku – 2024**

**Баку - 2024**

**FOUNDER AND EDITOR-IN-CHIEF**:
**Shafag ISLAMOVA**
PhD in history

**Editor:**
**Eldaniz MAMMADOV**
PhD in history

## Editorial staff:

**Khalil ISMAILOV**, doctor of science in history, professor
**Ikram AGHASIYEV**, doctor of science in history, professor
**İlqar NIFTALIYEV,** doctor of science in history, docent
**Jabi BAHRAMOV**, PhD in history, docent
**Sevda KHALAFOVA**, PhD in history, docent
**Parviz KAZIMI**, PhD in history, docent
**Tahira ALLAHYAROVA**, doctor of science in Philosophy, professor
**Rasmiya ABDULLAYEVA,** doctor of economy sciences, docent
**Alamdar BAYRAMOV**, PhD in philology, docent
**Elchin AHMEDOV**, PhD in pedagogy, docent
**Knyaz ASLAN**, PhD in pedagogy, docent
**Hasan KESEROGLU,** Professor of Information and Document Management (Kastamonu University, Turkey)
**Guler DEMİR,** Docent of Information and Document Management (Kastamonu University, Turkey)

**УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:**
**Шафаг ИСЛАМОВА**
доктор философии по истории

**РЕДАКТОР:**
**Эльданиз МАМЕДОВ**
доктор философии по истории

## Редакционная коллегия:

**Халил ИСМАИЛОВ,** доктор исторических наук, профессор
**Икрам АГАСИЕВ**, доктор исторических наук, профессор
**Ильгар Нифталиев,** доктор исторических наук, доцент
**Джаби БАХРАМОВ**, доктор философии по истории, доцент
**Севда ХАЛАФОВА**, доктор философии по истории, доцент
**Парвиз КАЗИМИ**, доктор философии по истории, доцент
**Тахира АЛЛАХЯРОВА,** доктор философских наук, профессор
**Расмия АБДУЛЛАЕВА,** доктор эклномических наук, доцент
**Аламдар БАЙРАМОВ**, доктор философии по филологии, доцент
**Эльчин АХМЕДОВ,** доктор философии по педагогике, доцент
**Князь АСЛАН,** доктор философии по педагогике, доцент
**Хасан КЕСЕРОГЛУ**, профессор менеджмента информации и документа (Университет Кастамону, Турция)
**Гюльер Демир**, доцент менеджмента информации и документа (Университет Кастамону, Турция)

The journal is registered with the Ministry of Justice of the Republic of Azerbaijan. Certificate **No. 2492**. Registration date **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Editorial address:** AZ1096, Baku city, K.Balakishiyev street 43/15
**Phones:** (+994 12) 539 30 21 (122); (+994 50) 558 98 59

**Email:** shafaq.ace@gmail.com
The magazine is published in the Publishing and Printing Center "Fuyuzat LLC".

Журнал зарегистрирован в Министерстве Юстиции Азербайджанской Республики. Свидетельство **№ 2492.** Дата регистрации **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Адрес редакции:** AZ1096, город Баку, улица К.Балакишиева 43/15
**Телефоны:** (+994 12) 539 30 21 (122); (+994 50) 558 98 59
**Электронная почта:** shafaq.ace@gmail.com
Журнал издается в Издательско-полиграфическом центре «Фуюзат ООО».

**© Public Union "The Library of Future"**
**© Kitabxana.az, 2024**

**© Общественное объединение «Библиотека будущего»**
**© Kitabxana.az, 2024**

**KİTABXANA.AZ, 2024, oktyabr, №2(41), 5-13**

**KİTABXANA İŞİNİN TARİXİ**
HISTORY OF LIBRARIANSHIP
***ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА***

================================================================

**UOT/UDC/УДК [*02+004.9*](*091*)**

DOI 10.5281/zenodo.17564640

**Şəfəq İsrafil qızı İslamova**
*Azərbaycan Respublikası ETN*
*İqtisadiyyat İnstitutunun kitabxana*
*müdiri, tarix üzrə fəlsəfə doktoru*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

# ƏNƏNƏDƏN RƏQƏMSALLIĞA: KİTABXANALARIN TARİXİ İNKİŞAF YOLU

***Xülasə:*** *Məqalədə kitabxanaların tarixi inkişaf mərhələləri təhlil olunur. Qədim dövrlərdə gil lövhələr üzərində başlayan kitabxana ənənəsinin, orta əsrlərdə dini və elmi ədəbiyyatın qorunub saxlandığı mərkəzlər kimi fəaliyyəti araşdırılır. Ardınca maarifçilik dövründə kitabxanaların ictimailəşməsi və təhsil vasitəsinə çevrilməsi məsələlərinə toxunulur. Nəhayət, XX əsrdə texnologiyanın sürətli inkişafı fonunda kitabxanaların yeni funksiyalar qazanması və rəqəmsallaşma mərhələsinə qədəm qoyması təhlil edilir.*

***Açar sözlər****: Kitabxana işinin tarixi, rəqəmsallaşma, informasiya cəmiyyəti, bilik yayımı, texnoloji transformasiya.*

## GİRİŞ

İnformasiya cəmiyyəti insan fəaliyyətində bilik və informasiyanın əsas resurs kimi çıxış etdiyi, texnologiyanın həyatın bütün sahələrinə nüfuz etdiyi yeni bir mərhələdir. Bu cəmiyyətin formalaşması, inkişafı və davamlılığı bilik infrastrukturunun mühüm dayaqlarından biri olan kitabxanaların funksional transformasiyası ilə sıx bağlıdır. Qədim dövrlərdə gil lövhələr üzərində yazılmış mətnlərin qorunduğu yerlərdən başlayaraq orta əsrlərdə dini və elmi biliklərin saxlandığı məkanlara, oradan isə maarifçilik dövrünün ictimai təhsil ocaqlarına çevrilən kitabxanalar zamanla yeni texnoloji çağırışlara uyğunlaşaraq rəqəmsal mühitdə fəaliyyət göstərən qurumlara çevrilmişdir. Bu inkişaf xətti yalnız kitabxanaların texniki

imkanlarının deyil, həm də onların cəmiyyətlə qarşılıqlı əlaqəsinin və funksional mahiyyətinin dəyişməsini əks etdirir. Məhz bu baxımdan kitabxanaların tarixi təkamülü, ənənədən rəqəmsallığa keçid prosesində oynadığı rol xüsusi araşdırma predmetinə çevrilir.

**MÜZAKİRƏ**

Kitabxanaların yaranma tarixi insanlığın yazını ixtira etməsi ilə birbaşa bağlıdır. Yazının meydana gəlməsi ilə bilik və informasiyanın yazılı şəkildə qorunmasına ehtiyac yarandı ki, bu da müxtəlif daşıyıcıların, məsələn, gil lövhələrin, papirusların, perqamentlərin və daha sonralar kağızın istifadəsini zəruri etdi. Bu ehtiyac nəticəsində kitabxanaların ilkin formaları meydana çıxmağa başladı.

***Kitabxanaların tarixi inkişafı və informasiya cəmiyyətinə keçid***

Kitabxanaların tarixi inkişafı qədim sivilizasiyalara Mesopotamiya, Misir, Yunanıstan və Roma dövrlərinə qədər uzanır. Həmin dövrlərdə kitabxanalar əsasən dini, elmi və inzibati mətnlərin toplanıb qorunduğu mərkəzlər kimi fəaliyyət göstərirdi. Tarixdə bu tip kitabxanaların ən məşhur nümunələrindən biri İsgəndəriyyə kitabxanasıdır. E.ə. III əsrdə yaradılmış bu kitabxana qədim dünyanın ən böyük və ən nüfuzlu kitabxanası hesab olunur. Müxtəlif mənbələrə əsasən burada 400000-dən çox papirus sənədinin saxlandığı güman edilir. Kitabxananın əsas məqsədi dünyadakı bütün bilik və ədəbiyyat nümunələrini toplayaraq mərkəzləşdirmək idi.

Mesopotamiyada (Şumer, Akkad, Babil) eramızdan əvvəl III minilliyə aid gil lövhələrdə, dağ süxurlarından formalaşmış parçalar üzərində mixi yazı ilə yazılmış dini qanunlar, iqtisadi hesabatlar və inzibati sənədlər saxlanılırdı *(Mammadov, 2022)*. Bu sənədlər qədim kitabxana nümunələrinin mövcudluğunu göstərir. Məsələn, Hammurapi qanunlarının əsas nüsxəsi, 2,25 metr daş (bazalt stela) üzərində, akkad dilində, mixi yazı ilə yazılmışdı.

Qədim Yaxın Şərqin elmi və ədəbi əsərlərinin toplandığı ən məşhur kitabxanalardan biri də eramızdan əvvəl VII əsrə aid Aşurbanipal kitabxanasıdır (Nineviya kitabxanası da adlanır). Bu kitabxanada 30000-dən çox mixi yazılı gil kitabə saxlanılırdı. Kitabxanada ədəbi əsərlər, coğrafiya, riyaziyyat, təbabət və müxtəlif elm sahələrinə aid ədəbiyyat, lüğətlər toplanmışdı.

Misirdə isə kitablar papirus üzərində yazılırdı və dini mətnlər əsasən məbədlərin kitabxanalarında qorunub saxlanılırdı. Bu məbəd kitabxanaları "həyat evləri" (per-ankh) adlandırılırdı. Məşhur "Ölülər kitabı" və digər qədim Misir dini kitabları məhz belə kitabxanalarda mühafizə olunurdu.

Romalılar dövründə kitabxanalar artıq şəhər mədəniyyətinin ayrılmaz

hissəsinə çevrilmiş və ictimaiyyət üçün açıq olmuşdur.

***Orta əsrlərdə kitabxana işi***

Orta əsrlərdə kitabxanalar əsasən dini və elmi mərkəzlər ətrafında formalaşırdı. Avropada bu mərkəzlər monastırlar, İslam dünyasında isə mədrəsələr və elm ocaqları idi. Bu dövr kitabxanaları elmi biliklərin qorunması və tərcümə fəaliyyəti ilə seçilirdi. Məsələn, Bağdaddakı "Beytül-Hikmə" (IX əsr) İslam qızıl dövrünün mühüm kitabxana və tərcümə mərkəzlərindən biri olmuşdur. Burada yunan, fars və hind mənbələrindən tərcümə olunan əsərlər toplanmışdı.

Avropa və İslam dünyası fərqli inkişaf yolları keçsə də, hər iki mədəniyyətdə kitabxanalar əsasən dini və elmi mətnlərin qorunduğu mərkəzlər kimi fəaliyyət göstərirdi *(Mammadov, 2022)*. Avropada, xüsusilə İrlandiya və Fransa ərazisindəki monastır kitabxanalarında rahiblər əlyazmaların surətlərini çıxarır, latın dilində dini və fəlsəfi əsərləri çoxaldırdılar. Bu kitabxanalarda əsasən dini məzmunlu əsərlər, həmçinin Aristotel və Platon kimi yunan filosoflarının əsərləri qorunurdu. Kitablar oğurluqdan qorunmaq üçün zəncirlərlə masalara bağlanırdı.

Eyni dövrdə İslam dünyasında riyaziyyat, cəbr, təbabət, fəlsəfə və astronomiya sahələrində yazılmış əsərlər geniş yayılmışdı. VIII–X əsrlərdə Bağdad, Dəməşq, Qahirə və Qəznə kimi şəhərlərdə böyük kitabxanalar və elmi mərkəzlər formalaşdırılmışdı. 830-cü ildə Abbasi xəlifəsi Məmun tərəfindən təsis edilən elmi akademik mərkəz "Beytül-Hikmə" (Hikmətlər evi) bu baxımdan xüsusi əhəmiyyət kəsb edirdi. İlk elmi təsisat hesab olunurdu. Dünyanın heç bir yerində belə böyük mərkəz olmamışdı. O, Bizansda savaşda qalib gələndən sonra özü ilə Bağdada çoxlu kitablar gətirdi. Bu kitablar əsasında böyük bir kitabxana təsis etdirdi. Bu kitabxana nəinki İslam, ümumiyyətlə, dünya tarixində çox böyük rol oynamışdı. Zənnimcə, bu elm ocağı dünya elminin inlkişafına təkan verən başlıca faktorlardan biridir. Kitabxananı zənginləşdirmək üçün xəzinədən külli miqdarda pul ayrılırdı. Bizansa və digər qonşu ölkələrə heyət göndərilirdi ki, yeni kitablar alıb Bağdada gətirsinlər. Həmin kitabxanada yunan, suryani, latın, fars və müxtəlif dillərdən ərəb dilinə kitablar tərcümə edilirdi.

"Beytül-Hikmə" ocağının formalaşmasında Bəni-Musa, yəni Musa oğulları adı ilə tanınan Məhəmməd, Əhməd və Həsən qardaşlarının xüsusi xidmətləri olmuşdur. Onlar cəbr, həndəsə, mexanika sahəsində fundamental tədqiqatlar aparmış, bir neçə mexaniki alətlərin ixtiraçısı kimi tarixə düşmüşlər. 1258-ci ildə monqolların hücumu ilə Bağdad fəth olunur və Beytül-Hikmə dağıdılır.

X əsrdə Əndəlüs vilayətində (indiki İspaniyada) yerləşən Kordova

kitabxanası isə özündə minlərlə əsəri ehtiva edir və dövrünün Avropadakı ən böyük kitabxanalarından biri sayılırdı.

O dövrün ənənəvi kitabxanalarının əsas xüsusiyyətləri aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 1.** ***Ənənəvi kitabxanaların xüsusiyyətləri***

| Xüsusiyyəti | Qədim dövr | Orta əsrlər |
|---|---|---|
| Əsas daşıyıcı material | Gil lövhə, papirus | Perqament, kağız |
| Əsərlərin dili | Mixi yazı, yunan, latın | Latın, ərəb, fars |
| İstifadəçi auditoriyası | Zadəganlar, din xadimləri, müdriklər | Zadəganlar, din xadimləri, alimlər |
| Funksiyası | İnformasiyanın qorunması | Dini və elmi biliklərin saxlanması, çoxaldılması |

Antik və orta əsr kitabxanaları informasiya və biliklərin qorunması, ötürülməsi və təkrar istehsalı baxımından insan sivilizasiyasının inkişafında mühüm rol oynamışdır. Bu ənənəvi kitabxana modelləri sonrakı dövrlərdə maarifçilik və rəqəmsal transformasiya mərhələlərində informasiya cəmiyyətinə keçidin təməlini qoymuşdur.

***Çap inqilabı və kitabxanaların kütləviləşməsi***

XV əsrdə Avropada baş verən çap inqilabı kitabxanaların inkişafında dönüş nöqtəsi oldu. Almaniyalı ixtiraçı İohann Qutenberqin 1440-cı ildə hərəkətli metal şriftlərlə çap dəzgahını yaratması, biliklərin yayılmasında inqilabi dəyişikliklərə yol açdı *(Гендина, 2010)*. Əvvəllər yalnız əlyazma formasında olan, məhdud sayda yayılan kitablar artıq daha tez və ucuz istehsal olunmağa başladı. Bu da sənəd artımını, sənəd axınını, kitabxanaların kütləviləşməsini, onların daha geniş ictimai təbəqəyə açılması prosesini sürətləndirdi.

Çapın geniş yayılması nəticəsində təhsil, elm və maarifçilik sahələrində sürətli inkişaf başladı. Əlyazma üsulu ilə illərlə görülən işlər, çapla bir neçə həftəyə tamamlanmağa başladı. Kitabların və digər sənədlərin sayı sürətlə artdı və bu da kitabxanaların fondlarının genişlənməsinə səbəb oldu.

***Maarifçilik və ictimai kitabxanaların yaranması***

Çap inqilabı kitabxanaların tarixində dönüş nöqtəsi yaratdı. Əvvəllər yalnız seçilmiş zümrəyə xidmət edən kitabxanalar artıq maariflənmə və ictimai təhsil vasitəsi olaraq geniş kütlələr üçün açıq məkana çevrildi. Bu proses informasiya cəmiyyətinin formalaşmasında əsas pillələrdən biri kimi qiymətləndirilə bilər.

XVII–XVIII əsrlər Avropada maarifçilik dövrü kimi tanınır. Bu dövrdə biliklərin hamıya çatdırılması ideyası ön plana çıxdı. İctimai kitabxanalar ideyası da məhz bu kontekstdə meydana gəldi. Bu dövrdə kitabxanalar artıq yalnız ali təbəqənin deyil, geniş ictimai kütlənin istifadəsinə təqdim olunmağa başladı. Dövlət və bələdiyyə tərəfindən maliyyələşən kitabxanalar yaradıldı. İctimai kitabxanalar maarifçilik ideyalarının, bilik, elm, təlim və təhsilin yayılmasında əsas vasitəyə çevrildi. Bunlara nümunə kimi, Britaniya muzey-kitabxanasını (1753), Fransa Milli Kitabxanasını, Bencamin Franklin tərəfindən XVIII əsrin 30-cu illərində Filadelfiyada yaradılmış və Şimali Amerikada ilk abunə tipli ictimai kitabxanasını misal göstərmək olar.

Bu dövrdə kitabxanalar, sosial rolu genişlənərək maarifləndirmə mərkəzi olmaqla yanaşı, ictimai diskussiyaların formalaşdığı məkanlara çevrilirdi. Tədricən kataloq sistemi, oxu zalları, kitab icarəsi və kitab töhfəsi proqramları meydana çıxdı, kitabxanalar elmi cəmiyyətlər və universitetlərlə sıx əməkdaşlıq qurmağa başladı.

Osmanlı dövründə də kitabxanalar fəaliyyət göstərirdi. Osmanlıda çap mətbəəsi yalnız 1727-ci ildə İbrahim Mütəfərrikə tərəfindən quruldu. Bu dövrə qədər kitablar əsasən əlyazma formasında idi, kitabxanalar daha çox dini və elmi mətnlərin qorunduğu mərkəzlər olaraq qalırdı. Lakin XVIII-XIX əsrlərdə kitabxana fondları genişlənməyə və maarifçiliklə paralel şəkildə ictimai xarakter almağa başladı.

***Rəqəmsal dövrə keçid və informasiya cəmiyyəti***

XX əsrin sonu – XXI əsrin əvvəlləri informasiya texnologiyalarının sürətli inkişafı ilə səciyyələnir. Bu dövrdə "informasiya cəmiyyəti" anlayışı ön plana çıxır və kitabxanalar rəqəmsallaşma prosesinə daxil olurlar. Elektron kataloqlar, rəqəmsal arxivlər, onlayn verilənlər bazası, informasiya resursları və virtual kitabxana xidmətləri kitabxanaların yenidən formalaşmasını təmin etdi *(Məmmədova, 2019).*

Getdikcə ənənəvi kitabxanalar informasiya cəmiyyətinin tələblərinə cavab vermək üçün informasiya və təhsil mərkəzinə çevrilir. Bu proses artıq 1990-cı illərdən etibarən baş verir və kitabxanalar rəqəmsal texnologiyaların tətbiqi ilə bilik istehsalı və paylaşımının mərkəzinə çevrilir *(Гендина, 2010).* Tarixi baxımdan kitabxanalarda avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi 1960-1970-ci illərdən başlayır. Bu proses MARC (ing. Machine-Readable Cataloging) formatının tətbiqi ilə sürətlənmişdir. 1980-ci illərdən sonra elektron resursların artımı və onlayn informasiya bazalarının yaradılması kitabxanalara yeni funksiyalar qazandırdı. XXI əsrdə "açıq elmi" təşviq edən platformalar - açıq arxivlər, e-jurnallar və elmi sosial

şəbəkələr kitabxanaların da iştirak etdiyi qlobal innovasiyalardandır.

Bu dəyişiklik kitabxanaların strukturuna, funksiyalarına və fəaliyyət mexanizminə köklü şəkildə təsir göstərdi, kitabxanaların cəmiyyətin maariflənməsi prosesindəki rolunu artırdı *(Məmmədova, 2019).* Rəqəmsallaşma prosesi kitabxanaları yalnız fiziki məkan deyil, həm də virtual informasiya platforması halına gətirdi. Rəqəmsallaşma, informasiya resurslarının elektron formatda yaradılması, qorunması, idarə olunması və istifadəçilərə təqdim edilməsi prosesi olmaqla, kitabxanalarda böyük dəyişikliklər yaratdı *(Rowley, 2006)*:

1. Fiziki daşıyıcılardan kağız, mikrofilm və digər rəqəmsal formatlara keçid;
2. Kitabxana kataloqlarının avtomatlaşdırılması və onlayn OPAC sistemlərinin tətbiqi;
3. Elektron kitablar (e-books), audio kitablar, rəqəmsal jurnallar və verilənlər bazalarının istifadəsi.

Əvvəllər istifadəçi bir kitabı yalnız kitabxanada oxuya bilirdisə, indi internet vasitəsilə dünyanın istənilən yerindən həmin kitaba çıxış əldə etmək mümkündür. Bu əlçatanlıq və inklüzivlik (cəmiyyətin bütün üzvlərinin bərabər hüquq və imkanlara malik olması) baxımından mühüm nailiyyətdir. Elektron resurslara abunə, verilənlər bazaları, açıq informasiya resursları (open access) istifadəçilərə (tələbatçılara) daha geniş məlumat əldə etmək imkanı yaradır. Rəqəmsal kitabxanalar 24/7 fəaliyyət göstərir, sərhədsiz və fasiləsiz informasiya xidməti təmin olunur; uşaqlar, sağlamlıq imkanları məhdud olan şəxslər və digər xüsusi qruplar üçün audio kitablardan, oxu proqramlarından, naviqasiya sistemlərindən istifadə təmin edilir. Tələbələr, tədqiqatçılar üçün məsafədən istifadə imkanı yaradılır.

İnformasiya cəmiyyəti informasiya və biliklərin əsas strateji resurs, iqtisadi əmtəə kimi qəbul olunduğu, texnologiyaların insan fəaliyyətinin bütün sahələrinə nüfuz etdiyi bir sosial-iqtisadi sistemdir *(Castells, 2010).* Bu cəmiyyətin əsas xüsusiyyətləri aşağıdakılardır:

❖ İnformasiyanın iqtisadi və sosial güc kimi dəyəri artır;

❖ Rəqəmsal savadlılıq, mediya bacarıqları və kritik düşüncə əsas bacarıqlara çevrilir;

❖ Biliklərə əsaslanan iqtisadiyyat, rəqəmsal idarəetmə, e-təhsil və e-kitabxana modelləri formalaşır.

Rəqəmsal dövrdə kitabxanaların funksiyası dəyişərək aşağıdakı istiqamətlərə yönəlir *(Süleymanova, 2020)*:

**Cədvəl 1.** ***Kitabxanaların yeni missiyası***

| **Ənənəvi funksiya** | **Yeni rəqəmsal funksiya** |
|---|---|
| Kitab saxlamaq | Rəqəmsal resursların idarə edilməsi |
| Oxu zalı təminatı | Onlayn platforma, vebinar, konfrans, seminar, rəqəmsal arxiv təminatı |
| Kataloq təminatı | OPAC, müxtəlif axtarış sistemləri təminatı |
| Məlumat təminatı | İnformasiya təminatı |

Azərbaycanda rəqəmsallaşma sahəsində müsbət fəaliyyəti olan kitabxanalardan M.F.Axundov adına Milli Kitabxananı misal göstərmək olar. Burada elektron kataloq sistemi, rəqəmsal arxivlər və onlayn sərgilər fəaliyyət göstərir *(Elektron kitabxanalar, 2023).*

Prezident kitabxanası da elektron kitablar və hüquqi sənədlərlə zəngin onlayn platforma formalaşdırmışdır. Hazırda bu prosesin həyata keçirilməsi ilə yanaşı bir sıra problemlər də mövcuddur; informasiya resurslarının hüquqi qorunması məsələləri, müəllif və əqli mülkiyyət hüquqlarının qorunması, texniki infrastrukturun bərabər olmaması, kadrların informasiya və rəqəmsal bacarıqlarının çatışmazlığı və s.

## NƏTİCƏ

Göründüyü kimi, kitabxanalar informasiya cəmiyyətinə keçidin mühüm mədəni və texnoloji sütunlarından biridir. Onlar tarixi inkişaf nəticəsində, müasir innovativ tətbiqlərlə zənginləşərək bilik istehsalı və yayımında müstəsna rol oynayırlar. Kitabxanaların keçmişi və bugünkü yenilikləri arasında qurulan körpü cəmiyyətin informasiya əsrində uğurla inkişaf etməsinə zəmin yaradır. Tarix göstərir ki, hər yeni texnoloji dövr kitabxanaların funksiyalarını genişləndirmiş və onları zamanın çağırışlarına uyğunlaşdırmışdır. Rəqəmsallaşma kitabxanaları sadəcə informasiya saxlanc yeri olmaqdan çıxarıb, təhsil, tədqiqat və bilik istehsalının mərkəzinə çevirmişdir. İnformasiya cəmiyyətində kitabxanalar biliklərə bərabər çıxışın təminatçısı, rəqəmsal bərabərliyin müdafiəçisi və ömürboyu (fasiləsiz) təhsilin (öyrənmənin) dəstəkçisidir.

## ƏDƏBİYYAT

*Castells, M. (2010).* The Rise of the Network Society. 2nd ed. Oxford: Wiley-Blackwell, 100 p.

*Elektron kitabxanalar: Azərbaycan təcrübəsi. (2023).* Bakı: AMK, s. 10-24.

*Mammadov, E. (2022).* History of books and libraries in Azerbaijan: Teaching aid for universities.

*Məmmədova, T. (2019).* İnformasiya cəmiyyəti və kitabxanalar. Bakı: Mütərcim, s. 33-55.

*Rowley, J. (2006).* Information Services Management. London: Facet Publishing, 113 p.

*Süleymanova, G. (2020).* Rəqəmsal texnologiyalar və kitabxana işi. Bakı: Elm və Təhsil, 120 s.

*Гендина, Н. И. (2010).* Информационная культура и библиотеки в цифровую эпоху. Москва: ЛИБРКОМ, 672 с.

**Shafag Israfil gizi Islamova**
*Head of the library of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan, Doctor of Philosophy in History*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

## FROM TRADITION TO DIGITALIZATION: THE HISTORICAL EVOLUTION OF LIBRARIES

***Abstract:*** *This paper explores the historical development of libraries, from ancient clay tablet archives to medieval centers of religious and scientific knowledge. During the Enlightenment, librarie evolved into public and educational institutions. In the 20th century, rapid technological progress led libraries into a new era of digitization, enabling expanded services and digital access. The research demonstrates that libraries are not merely repositories of information but dynamic centers of knowledge production and dissemination.*

***Keywords:*** *History of librarianship, digitization, information society, knowledge dissemination, technological transformation.*

**Шафаг Исрафил кызы Исламова**
*Заведующий библиотекой Института экономики Министерства науки и образования*

KİTABXANA.AZ, 2024, oktyabr, №2(41), 5-13

*Азербайджанской Республики,*
*Доктор философии по истории*
***Электронная почта:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

## ОТ ТРАДИЦИИ К ЦИФРОВИЗАЦИИ: ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ БИБЛИОТЕК

***Резюме:*** *В данной статье рассматривается историческое развитие библиотек: от древних архивов глиняных табличек до средневековых центров религиозных и научных знаний. В эпоху Просвещения библиотеки превратились в государственные и образовательные учреждения, а в XX веке стремительный технологический прогресс вывел библиотеки в новую эру цифровизации, обеспечив расширение услуг и цифрового доступа. Исследование показывает, что библиотеки - это не просто хранилища информации, а динамичные центры производства и распространения знаний.*

***Ключевые слова:*** *История библиотечного дела, цифровизация, информационное общество, распространение знаний, технологическая трансформация.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 28.07.2024; çapa qəbul edilib – 01.10.2024.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmi**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

**UOT/UDC/УДК** ***35:791.43/.45(479.24)*** DOI 10.5281/zenodo.17565819

**Vəfa Xanlar qızı Həşimova**
*AR ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, i.ü.f.d.*
***E-mail:*** vefa.hashimli@yandex.ru
*https://orcid.org/0000-0002-0392-1329*
**Kənan Tərlan oğlu Süleymanov**
*ADMİU-nun magistrantı*
***E-mail:*** kenansuleymanov802@gmail.com
*https://orcid.org/0009-0006-4249-926X*

# AZƏRBAYCANDA KİNEMATOQRAFİYA MÜƏSSİSƏLƏRİNİN İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Xülasə:*** *Məqalədə, əsasən, Azərbaycanda dövlət orqanlarının nəzdində fəaliyyət göstərən mədəniyyət müəssisələri və kinostudiyalar vasitəsilə kinematoqrafiya müəssisələrinin idarə olunmasının necə həyata keçirildiyi araşdırılır. Təhlil edilir ki, mərkəzləşdirilmiş maliyyələşmə, qeyri-kommersiya yönlü strategiyalar və resurs çatışmazlığı idarəetmənin səmərəliliyini azaldan başlıca amillərdir. Məqalədə həmçinin iqtisadi davamlılığın zəif təmin olunması, kinematoqrafiya sahəsində bazar mexanizmlərinin yetərincə inkişaf etməməsi, ixtisaslaşmış mütəxəssis (menecer) kadrların azlığı və rəqəmsal transformasiyaya ləng uyğunlaşma məsələlərinə toxunulur.*

***Açar sözlər:*** *Kinematoqrafiya, kino sənayesi, kinoteatr, film, teatr.*

## GİRİŞ

Kinematoqrafiya milli mədəniyyətin təbliği, ictimai rəyə təsir və

yaradıcı iqtisadiyyatın inkişafında mühüm rol oynayan sahələrdən biridir. XXI əsrdə bu sahənin idarə olunması təkcə yaradıcılığın təşkili ilə kifayətlənmir, eyni zamanda effektiv idarəetmə mexanizmlərinin qurulmasını, strateji planlaşdırma, resursların səmərəli istifadəsi və bazar yönlü yanaşmaların tətbiqini tələb edir. Azərbaycanda kinematoqrafiya müəssisələrinin idarəetmə mexanizmləri hələ də keçid dövrünün təsiri altındadır.

**MÜZAKİRƏ**

Azərbaycan kinematoqrafiya sektoru üçün müxtəlifliyin dəstəklənməsi yerli film istehsalına beynəlxalq marağın artırılması və beynəlxalq əməkdaşlığın inkişafı böyük əhəmiyyət kəsb edir. Bu yalnız milli kinonun keyfiyyətini yüksəltmək, həm də Azərbaycan filmlərinin dünya səhnəsində daha çox tanınmasına imkan yaratmaq məqsədini güdür. Belə yanaşma həm yerli sənətkarları stimullaşdırır, həm də müxtəlif mədəniyyətlərdən olan tamaşaçılara Azərbaycan kinosunu təqdim etməyə kömək edir. Beynəlxalq əməkdaşlıq, müştərək istehsal və festival iştirakları kimi imkanlar Azərbaycanın kinematoqrafiyasını daha geniş auditoriyaya tanıtmağa şərait yaradır. Həmçinin ölkənin kino sektorunun inkişafını sürətləndirə bilər *(Fokus, 2012).*

***Azərbaycanda kinematoqrafiya müəssisələrinin vəziyyəti***

Hələ 1998-ci il 3 iyul tarixində Ümummilli lider Heydər Əliyevin imzası ilə "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir *(Kinematoqrafiya, 1998).* Bu qanun kinematoqrafiyaya dövlətin himayə formalarını müəyyən edir, kinematoqrafiya sahəsində fəaliyyət göstərən fiziki, hüquqi şəxslərin hüquq və vəzifələrini tənzimləyir, incəsənətin xüsusi bir növü olan kinematoqrafiyanın qorunması və inkişafı üçün dövlət siyasətinin həyata keçirilməsini hüquqi baxımdan təmin edir. Kino tariximizdə mühüm yer tutan "Azərbaycan kinosunun 2008–2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" bu sahədə ilk geniş miqyaslı və strateji əhəmiyyətə malik sənəd hesab olunur *(Azərbaycan, 2022).* Azərbaycanda kinematoqrafiyanın əsas iştirakçısı kimi "Azərbaycanfilm" çıxış edir. O, Mədəniyyət Nazirliyinə tabe olan və maliyyələşdirilməsi baxımından ölkəmizin ən böyük studiyasıdır. "Azərbaycanfilm" kinostudiyasında bədii filmlərin ssenarilərinin təsdiqlənməsi prosesi Bədii Şura (BŞ) tərəfindən həyata keçirilir. Bu şura hər il yenidən seçilir və təsdiqlənir. Şuraya təqdim edilən ssenarilər, onun üzvləri tərəfindən müzakirə edilərək qəbul olunduqdan sonra Mədəniyyət Nazirliyinə təqdim edilir.

16 noyabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyev tərəfindən "Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi" haqqında Fərman imzalanmışdır *(Nizamnamə, 2022*). Azərbaycan Respublikasının Kino Agentliyi, Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən bir qurumdur. Agentlik ölkədə kinematoqrafiyanın inkişafını dəstəkləyir, yerli və beynəlxalq kino istehsalını təşviq edir və kino mədəniyyətinin təbliğatını təşkil edir. Kinematoqrafiya müəssisələrinin fəaliyyətini idarə edir və onlara nəzarət edir. Kino Agentliyi yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqini stimullaşdırır və Azərbaycan kinematoqrafiyasının dünya kinematoqrafiyasına inteqrasiyasını təmin etməyə çalışır.

Azərbaycanda kinematoqrafiya müəssisələrinin mövcud vəziyyətini və vətəndaşların bu sistemdən məmnuniyyət səviyyəsini qiymətləndirmək üçün Google Survey vasitəsilə bizim tərəfimizdən sorğu həyata keçirilmişdir.

***Sorğular***

Aparılan sorğunun nəticələri aşağıdakı kimi ümumiləşdirilmişdir.

Öncə sorğuda iştirak edənlərin demoqrafik quruluşunu öyrənmək üçün hansı yaş kateqoriyasına aid olduqlarını təhlil edək. Sorğuda iştirak edən respondentlərin 55,1%-i 18-24 yaş aralığında, 32,4%-i 25-34 yaş aralığında, 8,1%-i 35-44 yaş aralığında, 4,4%-i isə 45 yaş və yuxarı yaş qrupuna sahib olanlar təşkil etmişdir. "Ən çox hansı növ filmləri izləyirsiniz?" sualına respondentlərin 27,2%-i "aksiyon", 26,5%-i "həyat hekayələri", 18,4%-i "dram", 15,4%-i "komediya", 11%-i "fantastika", 1,5%-i "animasiya" izləməyi üstün tutduqlarını vurğulamışlar.

"Kinoteatrı ziyarət etdiyiniz tezlik nə qədərdir?" sualına respondetlərin böyük əksəriyyəti, yəni 85,3%-i "yalnız xüsusi hallarda (yeni filmlər, festivallar)", 10,3%-i "aylıq", 2,9%-i "həftədə bir dəfə", 1,5%-i "həftədə bir neçə dəfə" cavabını vermişlər. Göründüyü kimi, sorğuda iştirak edənlərin böyük hissəsi yalnız xüsusi hallarda kino izləməyi üstün tutduqlarını qeyd etmişlər.

"Kinoteatrda film izləməyin əsas səbəbi nədir?" sualına respondetlərin 30,1%-i "dostlarla vaxt keçirməyi", 21,3%-i "həyəcan və əyləncə axtarışını", 17,6%-i isə həm "film mədəniyyətinə marağı", həm də "müasir kino təcrübəsi (məsələn, yüksək keyfiyyətli avadanlıq, səs sistemi və s.)" variantını seçmişlər. Respondentlərin 13,2%-i isə "yerli filmləri izləmək" məqsədilə kinoteatra üz tutduğunu bildirmişdir.

"Kinoteatrların idarə edilməsinin hansı tərəflərini yaxşı hesab edirsiniz?" sualına sorğu iştirakçılarının 35,3%-i həm filmlərin seçimini, həm də kino zalının komfortunu (oturacaqların rahatlığı, təmizlik və ümumi şərait) yüksək qiymətləndirmişdir. Eyni zamanda 17,6% respondent

"avadanlıq və texnoloji infrastrukturun" səviyyəsindən, 7,4%-i isə "xidmət keyfiyyətindən (bilet satışı prosesi, personalın münasibəti və s.)" razılığını bildirmişdir. Yalnız 4,4% respondent kinoteatrların "reklam və marketinq fəaliyyətləri"ni müsbət dəyərləndirmişdir.

"Kinoteatrların proqram təminatını necə qiymətləndirirsiniz?" sualına cavab olaraq respondentlərin 41,2%-i "proqram təminatını orta səviyyədə", 40,4%-i isə "yaxşı"səviyyədə qiymətləndirmişdir. Respondentlərin 14,7%-i proqram təminatının onların təcrübəsinə xüsusi təsir göstərmədiyini bildirərkən, cəmi 3,7%-i proqram təminatını "zəif" hesab etdiyini qeyd etmişdir. Bu nəticələr göstərir ki, kinoteatrların proqram təminatı ümumilikdə müsbət qarşılanır, lakin bəzi istifadəçilər üçün fərqedilməz və ya inkişaf etdirilməli sahə kimi qalır.

"Kinoteatrlarda yerli filmlərin nümayişi barədə nə düşünürsünüz?" sualına verilən cavablar göstərir ki, respondentlərin 37,5%-i hazırda yerli filmlərə geniş tələb olmadığını düşünsə də, maraqlı və keyfiyyətli yerli filmləri izləməyə hazır olduqlarını bildirib. Respondentlərin 34,6%-i yerli filmlərin kinoteatrlarda daha geniş şəkildə nümayiş etdirilməsini arzulayır. Bununla yanaşı 19,1% respondent, ümumiyyətlə, yerli filmlərə marağının olmadığını qeyd etmiş, 8,8%-i isə yerli filmlərin sayının artmasını istəmədiyini bildirmişdir. Bu nəticələr yerli kino istehsalının keyfiyyət və məzmun baxımından inkişaf etdirilməsinin tamaşaçı marağının formalaşmasında mühüm rol oynadığını göstərir.

"Kinoteatrlar haqqında ümumi təcrübənizi necə qiymətləndirirsiniz?" sualına verilən cavablar göstərir ki, respondentlərin əksəriyyəti 50,7%-i kinoteatr təcrübəsini ümumilikdə *"müsbət"* qiymətləndirmişdir. Respondentlərin 16,2%-i bu təcrübəni *"çox müsbət"* hesab etmiş, 28,7%-i isə *"orta"* səviyyədə qiymətləndirmişdir. Cəmi 4,4% respondent kinoteatrlarla bağlı *"mənfi"* təəssürata malik olduğunu qeyd etmişdir. Bu nəticələr ümumilikdə tamaşaçıların kinoteatrlardan razı qaldığını göstərir, lakin təcrübənin daha yüksək səviyyəyə çatdırılması üçün bəzi sahələrdə təkmilləşdirmələrə ehtiyac olduğunu da ortaya qoyur.

"Kinoteatrların ticarət strategiyaları barədə nə düşünürsünüz?" sualına verilən cavablar göstərir ki, respondentlərin 43,4%-i kinoteatrlarda endirim kampaniyalarının və xüsusi təkliflərin daha çox olmasına ehtiyac olduğunu düşünür. Eyni zamanda 25% respondent bilet qiymətlərinin "*yüksək"* olduğunu qeyd etmiş, 20,6%-i qiymətləri ümumilikdə *"müvafiq"* hesab etmişdir. Yalnız 11% respondent kinoteatrlardakı qiymətləri *"çox münasib"* kimi dəyərləndirmişdir. Bu nəticələr göstərir ki, kinoteatrların kommersiya strategiyalarında daha çevik və tamaşaçı yönlü qiymət siyasətinin tətbiq

olunması vacibdir.

“Azərbaycanın yerli filmləri haqqında fikirləriniz nələrdir?” sualına cavab olaraq respondentlərin əksəriyyəti – 62,5%-i yerli filmlərin keyfiyyət baxımından müxtəlif səviyyədə olduğunu, bəzilərinin yaxşı, digərlərinin isə zəif olduğunu bildirmişdir. Respondentlərin 18,4%-i yerli filmləri yüksək qiymətləndirərək onlardan məmnun qaldığını qeyd etmiş, 11%-i yerli filmləri maraqsız hesab etdiyini, 8,1%-i isə ümumiyyətlə bu sahəyə maraq göstərmədiyini ifadə etmişdir. Bu nəticələr yerli kino istehsalında keyfiyyətli kontent yaradılmasının vacibliyini və tamaşaçı zövqünün hələ tam qarşılanmadığını göstərir.

“Azərbaycan kino sənayesinin inkişafı üçün hansı sahələrə daha çox diqqət yetirilməlidir?” sualına cavab olaraq respondentlərin 44,9%-i “kino təhsili və ixtisaslı kadrların hazırlanması”nı prioritet sahə kimi qeyd etmişdir. Respondentlərin 23,5%-i kino istehsalına dövlət dəstəyinin artırılmasını vacib hesab edir. 14%-i “yerli film bazarının təşviqi”nə diqqət yetirilməsini, 12,5%-i isə ölkədə “kino festivallarının sayının artırılması”nı təklif etmişdir. Yalnız 5,1% respondent “kino zallarının və texniki avadanlıqların modernləşdirilməsini” önəmli istiqamət kimi göstərmişdir. Bu nəticələr göstərir ki, kino sənayesinin davamlı inkişafı üçün ilk növbədə insan kapitalının gücləndirilməsi və struktur dəstəyin artırılması əsas amillər kimi dəyərləndirilir.

“Yerli filmlərin kinoteatrlarda daha geniş yer tutması üçün nə etməliyik?” sualına verilən cavablar göstərir ki, respondentlərin 52,2%-i bu istiqamətdə ilk növbədə “yerli filmlərin keyfiyyətinin artırılması”nın vacib olduğunu düşünür. 16,9% respondent “kinoteatrlarda yerli filmlərə həsr olunmuş xüsusi günlərin” təyin edilməsini, 16,2%-i isə bu filmlərin “daha çox reklam və marketinq” dəstəyi ilə tanıdılmasını təklif etmişdir. Eyni zamanda 8,8% respondent “yerli film festivallarının təşkili”nin vacibliyini vurğulamış, 5,9%-i isə “kinoteatrlarda qiymət siyasətinin dəyişdirilməsi”nin bu prosesə töhfə verəcəyini qeyd etmişdir. Bu nəticələr göstərir ki, yerli filmlərin tamaşaçı auditoriyasına çatdırılması üçün həm məzmunun keyfiyyəti, həm də institusional və kommersiya səviyyəsində dəstəkləyici addımların atılması zəruridir.

“Kinoteatrlarda nə cür film janrlarının nümayişinə üstünlük verirsiniz?” sualına verilən cavablara əsasən respondentlərin 45,6%-i “xarici və müasir filmləri” üstün tutduqlarını bildirmişdir. 20,6%-i “yerli filmlərə”, 15,4%-i isə “tarixi və sənədli filmlərə” maraq göstərdiyini qeyd etmişdir. 13,2% respondent “hibrid və eksperimental filmləri” izləməyi üstün hesab edir, 5,1% isə “uşaq və animasiya filmlərini” seçir. Bu nəticələr

kinoteatrların təqdim etdiyi film janrlarının müxtəlifliyi və tamaşaçıların zövqlərini qarşılamaq üçün həm yerli, həm də xarici kino istehsalına diqqət yetirilməsinin vacibliyini göstərir.

"Azərbaycan kino sənayesində gələcəkdə hansı istiqamətlərin inkişaf etməsini gözləyirsiniz?" sualına verilən cavablara əsasən respondentlərin 27,9%-i "yerli filmlərin daha çox istehsalı"nı vacib hesab edir, 27,2%-i isə bu filmlərin "beynəlxalq bazarlara çıxarılması"nı ön planda tuturlar. 25,7%-i "kino sənayesi ilə bağlı dövlət siyasətinin gücləndirilməsi"ni, 19,1%-i isə "müasir kino zallarının təkmilləşdirilməsi"ni vacib istiqamətlər kimi göstərmişdir. Bu nəticələr Azərbaycan kino sənayesinin gələcəyinə dair müxtəlif yanaşmaların mövcudluğunu və bu sahədə həm yerli istehsalın artmasını, həm də beynəlxalq miqyasda daha geniş tanınmağı təmin edəcək addımların atılmasını tələb etdiyini göstərir. "Kino sənayesinin inkişafı üçün ən vacib addım nə olmalıdır?" sualına verilən cavablara görə, respondentlərin 35,3%-i "kino istehsalçılarına daha çox dəstək verilməsi"nin vacib olduğunu qeyd etmişdir. 32,4%-i "kino təhsilinin gücləndirilməsi"ni prioritet addım kimi göstərmişdir. 14%-i "kino bazarının təkmilləşdirilməsi"ni, 11%-i isə "mədəniyyət siyasətinin dəstəklənməsi"ni vacib hesab etmişdir. Yalnız 7,4% respondent "kino zallarının əhatə dairəsinin artırılması"nı əsas inkişaf addımı olaraq qeyd etmişdir. Bu nəticələr kino sənayesinin inkişafı üçün həm struktur dəstəyin, həm də insan kapitalının inkişaf etdirilməsinin önəmli olduğunu göstərir.

Göründüyü kimi, Azərbaycanın kino sənayesi müxtəlif sahələrdə inkişaf etməyə davam edir. Sorğunun nəticələri göstərir ki, yerli kino istehsalının artırılması və beynəlxalq bazarlara çıxarılması, kino təhsilinin gücləndirilməsi, dövlət dəstəyinin artırılması kimi məsələlər kino sənayesinin inkişafı üçün əsas prioritetlərdir. Bu istiqamətlərdə atılacaq addımlar yerli filmlərin keyfiyyətinə, həm də kino sənayesinin iqtisadiyyatına müsbət şəkildə təsir edəcəkdir. Xüsusilə qeyd etmək lazımdır ki, kinoteatrlar tamaşaçılar tərəfindən geniş şəkildə qəbul edilir və məmnuniyyətlə qarşılanır. Bunu sorğunun nəticələri də təsdiqləyir. Bununla yanaşı, kinoteatrların daha yaxşı inkişafı üçün bəzi sahələrdə təkmilləşdirmələr tələb olunur, xüsusilə bilet qiymətləri və endirim kampaniyaları sahəsində təkmilləşdirmələrin aparılmasına zərurət vardır.

## NƏTİCƏ

Sorğunun nəticələrini nəzərə alaraq hazırda ölkəmizdə kino təhsili sahəsində islahatların aparılması, peşəkar kadrların hazırlanması, kino istehsalına dövlət dəstəyinin artırılması, yerli filmlərin beynəlxalq səviyyədə nümayiş etdirilməsi, kino bazarının təşviqi və reklam fəaliyyəti üçün

müvafiq mexanizmlərin inkişaf etdirilməsi, həmçinin kino zallarının modernləşdirilməsi, film nümayişi üçün endirim və xüsusi təkliflərin artırılması istiqamətlərində addımların atılması kinomatoqrafiyanı, kino sənayesinin sürətli inkişafına rəvac verə bilər. Bu sahələrdə atılacaq konkret addımlar kinematoqrafiya sənayenin dayanıqlı inkişafını təmin edəcək, yerli kino istehsalının dünya səviyyəsində tanınmasına imkan yaradacaq. Sorğunun nəticələri əsasında Azərbaycan kino sənayesinin inkişafı üçün aydın strateji istiqamətlər müəyyən edilmişdir. Ehtimal edirik ki, bu sahədə atılacaq addımlar kino sənayesinin gələcəyini və mövqeyini əhəmiyyətli dərəcədə gücləndirəcəkdir. Və düşünürük ki, bütün bunlar təkcə Azərbaycan kino sənayesinin daha geniş auditoriyaya çatmasını təmin etməyəcək, həm də yerli kino istehsalının daha keyfiyyətli və rəqabətədavamlı olmasına kömək edəcəkdir.

## ƏDƏBİYYAT

*“Azərbaycan Respublikası Kino Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2022).* İstifadə edilmişdir: 9 avqust, 2024 (https://e-qanun.az/framework/52742).

*Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi. (2022).* İstifadə edilmişdir: 10 avqust, 2024 (https://president.az/az/articles/view/57878).

*“Kinematoqrafiya haqqında” Azərbaycan Respublikasının Qanunu. (1998).* İstifadə edilmişdir: 10 avqust, 2024 (https://e-qanun.az/framework/3297).

*Fokus: analitik kino jurnalı. (2012).* Gənc Film İstehsalçıları Assosiasiyası. Bakı: CBS, 01(07), 240 s. İstifadə edilmişdir: 10 avqust, 2024 (https://kitabxana.net/files/books/file/1369247079.pdf).

**Vafa Khanlar gizi Hashimova**
*Leading researcher at the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan, PhD in Economics*
***E-mail:*** vefa.hashimli@yandex.ru
*https://orcid.org/0000-0002-0392-1329*
**Kenan Terlan oglu Suleymanov**
*Master’s student ASUCA*
***E-mail:*** kenansuleymanov802@gmail.com
*https://orcid.org/0009-0006-4249-926X*

## DIRECTIONS FOR IMPROVING THE MANAGEMENT MECHANISMS OF CINEMATOGRAPHY INSTITUTIONS IN AZERBAIJAN

***Abstract:*** *The article examines the management of cinematography institutions in Azerbaijan, which is mainly carried out through cultural institutions and film studios under state authorities. It analyzes the impact of centralized financing, non-commercial strategies, and resource shortages on management efficiency. The study discusses that weak economic sustainability, insufficient development of market mechanisms in the cinematography sector, a lack of specialized managerial staff, and the slow adaptation to digital transformation undermine the industry's international competitiveness and hinder the attraction of investors.*

***Keywords:*** *Cinematography, film industry, cinema, film, theater.*

**Вафа Ханлар кызы Гашимова**
*В.н.с. Института экономики Министерства науки и образования Азербайджанской Республики,*
*Доктор философии по экономике*
***Электронная почта***: vefa.hashimli@yandex.ru
*https://orcid.org/0000-0002-0392-1329*
**Кенан Терлан оглы Сулейманов**
*Магистрант АГУКИ*
***Электронная почта***: kenansuleymanov802@gmail.com
*https://orcid.org/0009-0006-4249-926X*

## НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ МЕХАНИЗМОВ УПРАВЛЕНИЯ КИНЕМАТОГРАФИЧЕСКИМИ УЧРЕЖДЕНИЯМИ В АЗЕРБАЙДЖАНЕ

***Резюме:*** *В статье рассматривается управление кинематографическими учреждениями в Азербайджане, которое осуществляется преимущественно через культурные учреждения и киностудии, находящиеся в ведении государственных органов. Анализируется влияние централизованного финансирования, некоммерческих стратегий и дефицита ресурсов на эффективность управления. В исследовании отмечается, что слабая экономическая устойчивость, недостаточное развитие рыночных механизмов в*

*кинематографическом секторе, нехватка специализированных управленческих кадров и медленная адаптация к цифровой трансформации подрывают международную конкурентоспособность отрасли и препятствуют привлечению инвесторов.*

***Ключевые слова:*** *Кинематография, киноиндустрия, кинотеатр, фильм, театр.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 11.08.2024; çapa qəbul edilib – 02.10.2024.



HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ
**İqtisad elmi**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

**UOT/UDC/УДК** ***330.836:314/316(479.24)*** DOI 10.5281/zenodo.17565932

**Konül İlqar qızı Məmmədova**
*Bakı Şəhər Statistika İdarəsi, Maliyyə və təsərrüfat sektoru, aparıcı məsləhətçi*
***E-mail:*** gonul@mail.ru
*https://orcid.org/0009-0007-2311-3162*

# MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCANDA SOSİAL İNFRASTRUKTURUN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

***Xülasə:*** *Məqalədə müasir mərhələdə, ölkənin sosial-iqtisadi tərəqqisinin mühüm amili kimi, sosial infrastrukturun inkişafı araşdırılır, Azərbaycanda sosial infrastrukturun mövcud vəziyyəti təhlil edilir, təhsil, səhiyyə, mədəniyyət, idman və sosial xidmət sahələrində əldə olunan nailiyyətlər və mövcud problemlər göstərilir. Araşdırmada dövlət proqramları çərçivəsində həyata keçirilən layihələrin sosial infrastrukturun maddi-texniki bazasının gücləndirilməsinə, regionlarda xidmətlərin əlçatanlığının artırılmasına təsiri qiymətləndirilir. Bununla yanaşı, bölgələrarası fərqlər, xidmət keyfiyyətində qeyri-bərabərlik və rəqəmsal xidmətlərin tətbiqində mövcud boşluqlar da təhlil olunur. Həmçinin məqalədə vurğulanır ki, davamlı sosial-iqtisadi inkişafın təmin olunması üçün sosial infrastrukturun müasir texnologiyalar əsasında yenilənməsi və regionlararası bərabərsizliklərin aradan qaldırılması mühüm məsələdir.*

***Açar sözlər:*** *Sosial infrastruktur, həyat səviyyəsi, sosial təminat, cəmiyyət, təhsil, yoxsulluq, sosial yardım.*

## GİRİŞ

Müasir dövrdə sosial infrastrukturun tərəqqisi hər bir ölkənin sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən birini təşkil edir. Sosial

infrastruktur dedikdə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, rifahının yaxşılaşdırılmasına və ictimai xidmətlərin əlçatanlığının təmin edilməsinə xidmət edən təhsil, səhiyyə, mədəniyyət, idman, sosial müdafiə və digər sahələr başa düşülür. Azərbaycanda son illərdə həyata keçirilən dövlət proqramları, regional inkişaf strategiyaları və islahatlar sosial infrastrukturun modernləşdirilməsinə yönəlmiş, ölkə üzrə yeni təhsil müəssisələri, səhiyyə ocaqları, mədəniyyət və idman mərkəzləri istifadəyə verilmişdir. Bununla belə, sosial infrastrukturun inkişafında regionlar üzrə fərqlər, xidmətlərin keyfiyyətində qeyri-bərabərlik və müasir texnologiyaların tətbiqi ilə bağlı məhdudiyyətlər mövcuddur.

***Sosial infrastrukturun resurs təminatı***

Sosial infrastruktur elementləri sosial siyasətin əsas məqsədlərində ifadə olunan əhalinin həyat keyfiyyətinin yüksəlişi, sağlam, aktiv yaradıcı nəslin formalaşması, onun rifahı və uzunömürlülük səviyyəsinin artımı və təkrar istehsalı ilə səciyyələnir. Sosial infrastruktur problemləri, həmçinin insanın artan sosial tələbatlarının tam təminatı fonunda mənzil şəraitinin keyfiyyətinin yüksəlişi, kommunal məskunlaşmanın ləğvi, məqsədyönlü fəaliyyətə, həyat və əməyin ekoloji şəraitinin yaxşılaşmasına rəğmən yeni mədəni sferanın təşkili, əmtəə və xidmətlərin həcm genişliyi, məhsuldarlığın artımında peşəkar təhsilin yüksəlişi, əhalinin ödəniş qabiliyyətinin artımı, gənclərə və təqaüdçülərə qayğının, həmçinin əhalinin bütün qrupları üzrə sosial müdafiənin gücləndirilməsində ifadə olunur.

## MÜZAKİRƏ

Bazar iqtisadiyyatı şəraitində dövlətin və ictimai təşkilatların fəaliyyəti aztəminatlı əhali qruplarının həyat səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Sosial təminat sisteminin təkmilləşdirilməsi, təqaüdlərin artırılması və yaşlı nəslin problemlərinin həlli əhalinin maliyyə yükünün azaldılmasına, sosial rifahın isə artmasına şərait yaradır. Sosial infrastrukturun inkişafı da bu prosesin mühüm tərkib hissəsidir. Mənzil və sosial obyektlərin müasir tələblərə uyğunlaşdırılması, ticarət və xidmət sahələrinin yaxşılaşdırılması sosial sferanın əsas iqtisadi göstəriciləri kimi dəyərləndirilir. Ümumilikdə sosial mühitin gücləndirilməsi və əhalinin rahatlığının təmin edilməsi yüksək həyat keyfiyyətinə nail olmağın və vətəndaş cəmiyyəti quruculuğunun əsas prinsiplərindən birini təşkil edir.

İnsan əhəmiyyətinin öncəliyi və mədəniyyəti, həmçinin iqtisadiyyatın inkişafında insanın mövqeyi və rolu ən əsas məsələdir. Sosial infrastruktur bu baxımdan bütün ölkələrdə milli sərvət, insan kapitalının formalaşmasında, ictimai təkrar istehsal prosesində və cəmiyyətin ümumi rifahının artırılmasında əhəmiyyətli rol daşıyır.

Sosial sahələr əsasən az material tələb edən, işə əsaslanan və az maliyyə tələb edən sahələrdir. Bu sahələrin fəaliyyəti, planlanması, ümumi xərclərin həcmi və strukturu ilə təyin olunur. Sosial sahələrin rəqabət mühiti daxilində iş obyekti kimi fəaliyyət göstərməsi, onların mənfəətliliyi tələb olunur. Əks halda bu sahəyə kapital axını mümkün olmaz. Bu səbəbdən planlı iqtisadi sistemdə bu sahələrin inkişafı mərkəzi resurslar əsasında olur. Müasir şəraitdə daimi və rəqabət yönlü fəaliyyət üçün bu sahələrin ticarətə yönəlmiş fəaliyyəti vacib hesab olunur. Belə fəaliyyət, ancaq ticarət maraqlarının bəlli bir kvotası və məhdudluğu çərçivəsində həll olunur. Ölkənin iqtisadiyyatı inkişaf etdikcə iqtisadi siyasətlə birlikdə sosial siyasətin maddi-mənəvi dəstəyi şəkillənir. Bölgü sistemləri inkişaf edir və sosial fondlar yaradılır.

Sosial sahələr fərqli mülkiyyət formaları altında yerləşə bilər. Bu sahələr təbii, coğrafi, əhalinin mülkiyyətində və yaxud dövlət mülkiyyətində də ola bilər. Mülkiyyət formaları həmin sahələrin nə üçün istifadə edildiyinə və kim tərəfindən idarə olunduğuna bağlı olaraq dəyişir. Sahibkarlıq hüquqları həmin sahələri idarə edən və ya istifadə edən tərəflərə nəzərdə tutulmuş öhdəliklər və imtiyazlarla əlaqəlidir.

***Dövlət büdcəsinin rolu***

Dövlət büdcəsi sosial sahələrin inkişafı, təhlükəsizliyin qorunması və əhalinin tələbatlarının ödənilməsi üçün mühüm bir vasitədir. Bu büdcə sosial yönlü və ya investisiya təyinatlı olaraq iki növə ayrılır:

- Sosial yönlü büdcə, sosial müdafiə xidmətlərinə, əhalinin həyat səviyyəsinə təsir edən layihələrə dəstək vermək üçün nəzərdə tutulub;
- İnvestisiya təyinatlı büdcə isə infrastrukturun, elmin, texnologiyanın inkişafı və s. kimi sahələrə sərmayə qoyaraq uzunmüddətli inkişafı təmin etməyə yönəlmişdir *(Əlirzayev, 2010).*

Hər bir sahənin fəaliyyəti üçün maliyyə resurslarının planlanması və təmin edilməsi vacibdir. Bu, müəyyən bir sahəyə və ya layihəyə sərmayə ayırmaq, fəaliyyətin davam etməsini və inkişafını təmin etmək üçün əhəmiyyətli bir addımdır. Sosial infrastrukturun resurs təminatından bəhs edərkən ilkin növbədə onun kadr potensialından danışmaq lazımdır. Çünki bütün sahələrdə olduğu kimi, bu sahədə də kadrlar ən zəruri resurs hesab edilir. Sosial infrastruktura daxil olan sahələrdə, xüsusilə elm, təhsil, səhiyyə xidmətlərində kadr potensialının keyfiyyəti daha vacibdir. Məlum olduğu kimi, bu xidmət sahələri cəmiyyətin inkişafının əsasını təşkil edən insan kapitalını formalaşdırır *(Abdullayeva & Muradov, 2009).*

Əlavə olaraq deyə bilərik ki, sosial infrastrukturun inkişafında kadrların rolu son dərəcə əhəmiyyətlidir. Təhsil proqramları peşə

məktəbləri, orta ixtisas və ali təhsil müəssisələri tərəfindən hazırlanan kadr potensialı, sosial sahələrin fəaliyyətinin keyfiyyətini və effektivliyini müəyyən edir.

Əgər təhsil sahəsində kadr hazırlığının səviyyəsi aşağı düşərsə, bu sosial infrastrukturun layihə və proqramlarının inkişafında ciddi problemlər yaradır. Çünki sosial sahələrdə çalışan kadrların peşəkarlığı və səriştəliliyi, cəmiyyətin mənfi təsirlərinin azaldılması və inkişafının təminatı üçün vacibdir. Bu səbəbdən sosial sahələrdə kadr potensialının formalaşması, onların əməyinin dəyərli və ədalətli ödənilməsi, sosial infrastrukturun inkişafı üçün vacibdir. Kadrların keyfiyyətli olması, sosial xidmətlərin effektiv olmasını təmin edir və cəmiyyətin geniş perspektivlərdə inkişafına yardımçı olur.

Ən vacib məsələlər sırasında sosial sahədə fəaliyyət göstərən kadrların təhlükəsizliyi, maliyyə təminatı və peşəkar hazırlığı xüsusi yer tutur. Bu sahədə çalışan mütəxəssislərin təhsil səviyyəsi və peşəkarlığı daim diqqət mərkəzində saxlanılır və sosial xidmətlərin səmərəliliyi ilə keyfiyyətini müəyyənləşdirən əsas amillərdən biri kimi çıxış edir.

Təhsil sosial infrastrukturun mühüm tərkib hissəsi olmaqla konstitusiyada təminat altına alınmış və dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. O, ölkənin inkişafında həlledici rol oynayan əsas faktorlardandır. Bununla belə, bu gün də bir çox ölkələrdə təhsil sistemi ilə bağlı müəyyən problemlər qalmaqdadır və onların həlli üçün müxtəlif tənzimləyici mexanizmlər tətbiq olunur. R.Lukas və P.Romerin iqtisadi inkişafın endogen nəzəriyyəsində vurğulandığı kimi, əsas kapitala investisiya qoyuluşu aparılmasa belə, biliklərin artırılması hesabına məhsul istehsalını yüksəltmək mümkündür. Digər amerikalı ekspertlər D.Qreyson və K.Odell isə qeyd edirlər ki, hər kəsin oxuyub-yaza bildiyi bir cəmiyyət bir neçə dahiyə malik, lakin əhalisinin əksəriyyəti savadsız olan cəmiyyət üzərində həmişə üstünlük qazanacaqdır *(Rasimoğlu, 2002).*

Sosial sahələrdə işçilərin əmək haqqının yüksək təhsil səviyyəsi və ya işin kəmiyyəti ilə əlaqələndirilməməsi əmək haqqının aşağı səviyyədə olmasına səbəb ola bilər. Bununla birlikdə, sosial sahələrdə işçilərin əmək haqqının aşağı olması, sosial infrastrukturun əmək ehtiyatlarının nəzərə alınmaması ilə işçilər arasında mütənasibliyin təmin edilməsi mümkün deyildir.

Azərbaycan Respublikasında sosial yönlü siyasət aparılır və sosial təminatın və sosial infrastrukturun yaxşılaşdırılması üçün bir sıra dövlət proqramları həyata keçirilir. Bu proqramlar ölkənin iqtisadiyyatının sürətli

inkişafına, büdcə gəlirlərinin artmasına, sosial xərclərin artırılmasına və yoxsulluq səviyyəsini azaltmağa kömək edir.

Son 7-8 ildə Azərbaycanda ən azı 11 sosial yönlü dövlət proqramı həyata keçirilmişdir. Bu proqramların əksəriyyəti regionlarda, qalanı isə Bakı şəhəri və ətraf qəsəbələrdə, işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişafı təmin etməyə həsr olunmuşdur. Bu proqramlar ölkənin sosial və iqtisadi inkişafına dəstək olmaq və əhaliyə daha yaxşı yaşayış şəraiti təmin etmək məqsədi ilə hazırlanmışdır. Bu dövlət proqramları çərçivəsində sosial infrastruktur sahələrinin inkişafına yönlənmiş konkret addımlar atılır. Bu addımlar arasında:

***Ünvanlı sosial yardım***

Azərbaycanda ünvanlı sosial yardım (ÜSY), "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı" çərçivəsində yaradılmışdır *(YAİİDP, 2003).* Bu proqramın qanunverici əsası "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanunu tərəfindən təmin edilmişdir *(ÜDSYH, 2005).* ÜSY aztəminatlı ailələrin yoxsulluqdan qorunması və sosial risklərdən müdafiəsi məqsədilə təşkil edilmişdir. Bu proqramın effektiv icrası üçün müvafiq monitorinq və nəzarət mexanizmləri də təşkil edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sosial və iqtisadi inkişafa dair 2023-cü ilin dekabr ayının hesabatına əsasən 2024-cü ilin əvvəlinə 65 minədək aztəminatlı ailənin 275 minədək ailə üzvü ünvanlı dövlət sosial yardımı almış və onun bir nəfərə düşən orta aylıq məbləği təxminən 114 manat təşkil etmişdir *(Sosial, 2023).*

***Yoxsulluğun azaldılması***

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" (YADİDP) əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunan müsbət meyilləri davam etdirmək məqsədi ilə hazırlanmışdır *(YADİDP, 2008).* Bu dövlət proqramı sayəsində yoxsulluq səviyyəsində azalmalar müşahidə edilmişdir. Hazırda (2024-cü il üzrə) Azərbaycanda yoxsulluq və işsizlik səviyyəsi 5,3 faizə enib. Bu da yoxsulluq səviyyəsinin son 20 ildə 44%-dən 5%-ə qədər azalması deməkdir *(Yoxsulluq və işsizlik, 2024).*

Sadalanan müsbət nəticələr iqtisadiyyatın çoxşaxəli təşkili, qeyri-neft sahəsi üzrə davamlı inkişaf, çoxsaylı yeni iş yerlərinin açılması və cəmiyyət üzvlərinin orta aylıq gəlirlərinin müntəzəm artması vasitəsilə əldə edilmişdir. Bu proseslər paralel şəkildə ünvanlı sosial yardım mexanizminin reallaşdırılmasına kömək etmiş, ölkədə yoxsulluq səviyyəsinin getdikcə

azalmasına şərait yaratmışdır.

Bu proqramın tətbiqi ilə əhalinin rifahının artırılması, sosial müavinətlərin genişləndirilməsi və yoxsulluğun azaldılması istiqamətində müsbət dəyişikliklər müşahidə olunmuşdur. Bu da ölkənin sosial-iqtisadi inkişafında böyük bir addımdır və əhalinin yaşam şəraiti, rifah halının yaxşılaşmasına dəstək olmaqla təsirli bir şəkildə fayda vermişdir.

Sosial infrastruktur müəssisələrinin maddi-texniki bazasının inkişafının əsas perspektiv istiqamətindən biri kimi lizinqi göstərə bilərik. Məlumdur ki, lizinq müqaviləsinə görə, lizinq verən müəyyən bir alıcıdan müqavilədə göstərilmiş əmlakı alıb haqqı ödənilməklə onu lizinqə götürənə müvəqqəti istifadəyə verməyi öhdəsinə götürür. Digər maliyyələşdirmə formaları ilə müqayisədə lizinq, aşağıdakı imkanların reallaşmasına şərait yaradır:

❖ Müqavilə imzalanan anda haqqının ödənilməsinə kifayət qədər maliyyə vəsaiti olmadan mürəkkəb, nadir avadanlıq və aparaturanın alınması;

❖ Bu maliyyələşdirmə formasının mənəvi aşınmaya (köhnəlməyə) məruz qalmış avadanlıqların dəyişdirilməsi üçün istifadə edilməsi;

❖ Təminat və avans girovu olmadan keçinmə imkanları (belə maliyyələşdirmə bunları nəzərdə tutmur).

Lizinq üzrə alınmış avadanlıq və aparatura müəssisənin borcunu artırmır, çünki onun balansında hesaba alınmır. Misal üçün səhiyyədə istifadə olunan müasir avadanlıqlar olduqca bahalıdır və hələlik vəsait çatışmazlığı üzündən səhiyyə idarələrinin onları almağa imkanları yoxdur. Burada lizinq şərtləri çox səmərəli olardı *(Abdullayeva & Muradov, 2009).*

Sosial infrastrukturun cəmiyyətin inkişafındakı rolu və funksiyalarına əsaslanaraq sosial sahələrdə idarəetmənin peşəkarlıq, insanlarla işləmək bacarığı tələb etdiyini anlayırıq. Bu, sosial infrastrukturun sürətli, effektiv bir şəkildə idarə edilməsi və insanların tələblərinə cavab verən xidmətlərin təmin olunması üçün önəmli bir amildir. Buna görə də sosial infrastrukturun inkişafı cəmiyyətin sosial-iqtisadi potensialını artırmaq üçün vacibdir, bu da dolayısı ilə iqtisadiyyatın ümumilikdə inkişafına təkan verir. Sosial infrastrukturun funksiyaları aşağıdakı sxemdə göstərilmişdir.




**Sxem 1.** ***Sosial infrastrukturun funksiyaları***

Sosial təkrar istehsal prosesinin xarakteristikaları sosial infrastrukturun funksiyaları tərəfindən müəyyənləşdirilə bilir. Əhalinin fərqli təbəqələri üzrə sosial təkrar istehsal funksiyası ilə həyatın hərtərəfli təminat məsələsi sosial infrastrukturun əsas vəzifəsi kimi çıxış edir. Sosial təkrar istehsal funksiyası cəmiyyətin mövcudluğu üçün olduqca əsas faktordur, bu funksiya vasitəsilə cəmiyyət həyatının inkişaf perspektivləri aşkarlanır.

Sosial-müdafiə funksiyası ölkə üzrə aztəminatlı təbəqənin sosial zəmanət və sosial yardım hüquqlarını, eyni zamanda sosial dəstəyi təmin edir, həmçinin əhalinin sosial cəhətdən müdafiə olunması dərəcəsini müəyyənləşdirən göstəricilər sistemi ilə ifadə olunur.

Sosial infrastrukturun effektiv inkişafı, maddi-texniki resursların layiqli idarə olunması və yenilənməsi ilə mümkündür. Bu da ölkədə əhalinin yaşayış səviyyəsinin yaxşılaşmasına və sosial-iqtisadi inkişafın sürətli, daimi olmasına kömək edir.

Deyə bilərik ki, Azərbaycan Respublikasında müstəqilliyin ilk illərində iqtisadi və sosial sahələrdə yaşanan böhran sosial infrastrukturun əsas fondlarının zəifləməsinə səbəb olmuşdur. Bundan əlavə, maliyyə resurslarının kifayət qədər olmaması bu sahələrin maddi-texniki bazasının güclənməsinə imkan vermirdi. Nəticədə təhsil, sağlamlıq, idman və s. sahələrdə xidmətlərin səviyyəsi aşağı düşdü, bu isə iqtisadi fəaliyyət sahələrində müasir tələblərə cavab verən kadrların təmin edilməsində çətinliklər yaradırdı. Ancaq zaman keçdikcə bu vəziyyət düzəlməyə başladı. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (ARDSK)

məlumatlarına əsasən sosial infrastruktur sahələrində əsas fondların dəyəri 2010-cu ildə 5961.3 milyon manat ikən, 2022-ci ildə bu dəyər 9300.9 milyon manat olmuşdur. Bundan başqa, əsas kapitala yönəldilmiş investisiyalar 2010-cu ildə 9905.7 milyon manat, 2022-ci ildə isə 17878.2 milyon manat olmuşdur. Son illərdə Azərbaycanda sosial infrastrukturun inkişafı istiqamətində bir çox işlər görülmüşdür. Məsələn, təhsil, mədəniyyət, sağlamlıq, turizm, nəqliyyat və rabitə kimi əsas sosial sahələrə daxil olan investisiyaların həcmi artmış, yeni obyektlər tikilmiş, mövcud obyektlər təmir edilmiş və onların maddi-texniki bazası gücləndirilmişdir *(Abdullayeva, 2018).*

**Cədvəl 1.** ***Sosial-mədəni obyektlərin istifadəyə verilməsi (2005-2022)***

| İllər | Məktəbəqədər təhsil müəssisələri, yer | Ümumi təhsil müəssisə-ləri, şagird yeri | Xəstəxa-nalar, çarpayı | Ambulatoriya-poliklinika müəssisələri, bir növbədə gəlişlərin sayı | Klub, yer |
|---|---|---|---|---|---|
| 2005 | 53 | 44668 | 72 | 441 | 240 |
| 2010 | 1010 | 19183 | 886 | 710 | 1055 |
| 2015 | 2292 | 16904 | 210 | 290 | 280 |
| 2016 | 2267 | 5404 | 300 | 40 | 700 |
| 2017 | 1574 | 9668 | 205 | 30 | 280 |
| 2018 | 2220 | 19626 | 808 | 45 | 280 |
| 2019 | 850 | 11562 | 790 | 76 | 248 |
| 2020 | 520 | 14602 | 1930 | 60 | 470 |
| 2021 | 610 | 14422 | 440 | 658 | 316 |
| 2022 | 1010 | 17874 | 15 | 17 | 340 |

Cədvəl 1-də  məlumatlarının təhlili göstərir ki, son illərdə xəstəxana, ambulatoriya-poliklinika müəssisələri, ümumtəhsil məktəbləri, məktəbəqədər uşaq müəssisələrinin tikintisində də sürətli inkişaf baş vermişdir.

Sosial sferada işləyən heyətin keyfiyyət tərkibi, peşəkarlığı və psixoloji hazırlığı, müxtəlif sosial qruplarla işləmək bacarığı həmişə dəyərli, tələb olunan olmuşdur. Bu sahədə işləyənlər arasında ali təhsillilərin faizi çox yüksək olur. Bununla birlikdə bəzi sahələrdə ali təhsillilərə deyil, müxtəlif peşələrdə, xüsusilə ictimai iaşə xidmətində çalışanlara daha çox ehtiyac olur *(Abdullayeva, 2018).*

Tədqiqatlar və həyat təcrübəsi əsasında görünür ki, sosial infrastrukturun fəaliyyət sahələrində işləyən işçilərin sosial müdafiəsinin

gücləndirilməsi ilə sıx bağlılığı vardır. Bunlar cəmiyyətin iqtisadi effektivliyini artırmaq və sivil cəmiyyətin inkişafına töhfə verən bir çox faydalı təsirlərə səbəb olur. Həqiqətən də sosial sahədə çalışanların cəmiyyətin intellektual potensialının formalaşmasında əhəmiyyətli bir rol oynadığı müsbət bir həqiqətdir.

Universitetlər, orta ixtisas məktəbləri və peşə məktəbləri vasitəsilə sosial infrastruktur sahələrinə kadr təminatı həyata keçirilir. Onlar sosial sahədə işləyən insanların peşəkarlaşmasına və işlərini daha effektiv şəkildə yerinə yetirməsinə kömək edir, təhsil və peşə təlimi proqramları, işçiləri mühüm bilik və bacarıqlar ilə təmin edir, onların sosial sahədəki vəzifələrini daha mükəmməl icra etmələrinə imkan verir.

Əlavə olaraq deyə bilərik ki, sosial sahədə işləyən işçilərin təcrübəsi və praktiki bilikləri də çox önəmlidir. Bu insanlar cəmiyyətdəki problemləri anlamaq və həll etmək üçün güclü məlumat (informasiya) bazasına malik olmalıdırlar. Onların fərdi təcrübələri, müşahidələri sosial sahədəki innovativ təkliflərin və yaradıcılığın inkişafına səbəb olur.

Müasir iqtisadi şəraitdə açıq iqtisadiyyat və formalaşmış investisiya sistemi ölkələrin inkişafında mühüm rol oynayır. Bu proses təkcə daxili sərvət və resursların səmərəli istifadəsi ilə deyil, həm də xarici maliyyə vəsaitlərinin, kreditlərin, müştərək müəssisələrin cəlb olunması ilə təmin edilir. Sosial sahənin maliyyə əsasları onun xərclər strukturunu müəyyənləşdirir. Hər bir sosial müəssisə əmək haqqı, sosial sığorta ödənişləri və müxtəlif sosial proqramlar üçün vəsait ayırır ki, bu da sosial proqramların səmərəliliyini artırmaqla yanaşı, bu sahəyə əlavə kapital qoyuluşuna da şərait yaradır. Maliyyə əsaslarının düzgün qurulması və onun effektivliyi kapitalın cəlb olunmasını stimullaşdırır. Məsələn, əmək haqqı və sosial sığorta ödənişlərinin artırılması işçilərin motivasiyasını yüksəldərək onların işgüzarlığını və məhsuldarlığını artırır, nəticədə isə sosial sahənin ümumi səmərəliliyi və cəmiyyətin davamlı inkişafı təmin olunur. Bundan əlavə, maliyyə resurslarının səmərəli idarə edilməsi sosial proqramların məqsədlərinə daha dəqiq çatmağa imkan verir. Beləliklə, sosial sahənin maliyyə əsaslarının düzgün təşkili və effektiv idarə olunması həm sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi, həm də istehsal resurslarının daha səmərəli istifadəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

## NƏTİCƏ

Aparılan təhlillər göstərir ki, müasir mərhələdə Azərbaycanda sosial infrastrukturun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Təhsil, səhiyyə, mədəniyyət, idman və sosial müdafiə sahələrində həyata

keçirilən islahatlar əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə, regional bərabərsizliyin azaldılmasına və dayanıqlı sosial rifahın təmin olunmasına yönəlmişdir. Son illərdə ölkədə sosial infrastruktur obyektlərinin müasirləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, kənd və şəhər yerlərində sosial xidmətlərə çıxış imkanlarının genişləndirilməsi müşahidə olunur. Bununla yanaşı, sosial infrastrukturun inkişafında hələ də müəyyən çağırışlar mövcuddur. Xüsusilə regionlar arasında infrastruktur təminatının qeyri-bərabərliyi, maliyyələşdirmə mexanizmlərinin daha da təkmilləşdirilməsi, sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi vacib məsələlər kimi qalmaqdadır.

Ümumilikdə, Azərbaycanda sosial infrastrukturun hazırkı vəziyyəti pozitiv dinamika ilə xarakterizə olunur. Davamlı iqtisadi inkişaf, dövlət proqramlarının icrası, strateji yanaşmalar sosial infrastrukturun daha da gücləndirilməsinə, əhalinin rifahının artırılmasına və sosial sabitliyin möhkəmləndirilməsinə imkan yaradır.

## ƏDƏBİYYAT

*Abdullayeva, R. (2018).* Sosial təminat: liberal və dirijist iqtisadi sistemlərdə. Bakı, 199 s.

*Abdullayeva, R., & Muradov, A. (2009).* Sosial sferanın iqtisadiyyatı. Bakı, 235 s.

*Əlirzayev, Ə. (2010).* Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, 326 s.

*Rasimoğlu, R. (2002).* Qloballaşan iqtisadiyyat Azərbaycan prizmasında. Bakı: Nurlan, 127 s.

*Sosial, iqtisadi inkişaf. (2023).* Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. İstifadə edilmişdir: 12 avqust, 2024 (https://www.stat.gov.az/news/source/doklad_2023-12.pdf).

*2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı. (2003).* İstifadə edilmişdir: 10 avqust, 2024 (https://e-qanun.az/framework/1954).

*"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu. (2005).* İstifadə edilmişdir: 11 avqust, 2024 (https://e-qanun.az/framework/10854).

*2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı. (2008).* İstifadə edilmişdir: 15 avqust,

2024 (https://e-qanun.az/framework/15399).

*2024-cü ildə yoxsulluq və işsizlik 5,2 faizə düşüb - Nazir müavini. (2024).* Azerbaijan news. İstifadə edilmişdir: 15 avqust, 2024 (https://anews.az/az/ekonomika/493796/2024-cu-ilde-yoxsulluq-ve-issizlik-52-faize-dusub-nazir-muavini/).

**Konul Ilgar gizi Mammadova**
*Baku City Statistics Department, Finance and Economic Sector, Leading consultant*
***E-mail:*** gonul@mail.ru
*https://orcid.org/0009-0007-2311-3162*

## ANALYSIS OF THE CURRENT STATE OF SOCIAL INFRASTRUCTURE IN AZERBAIJAN AT THE MODERN STAGE

***Abstract:*** *At the present stage, the development of social infrastruture is studied as an important factor of the country's socio-economic progress. The article analyzes the current state of social infrastructure in Azerbaijan, highlighting achievements and existing problems in the fields of education, healthcare, culture, sports, and social services. The study evaluates the impact of projects implemented within the framework of state programs on strengthening the material and technical base of social infrastructure and improving access to services in the regions. At the same time, interregional differences, inequalities in service quality, and gaps in the application of digital services are also examined. The article emphasizes that ensuring sustainable socio-economic development requires the modernization of social infrastructure based on modern technologies and the elimination of regional disparitie.*

***Keywords:*** *Social infrastructure, standard of living, social security, society, education, poverty, social assistance.*

**Конуль Ильгар кызы Мамедова**
*Управление статистики города Баку, Финансово-экономический сектор, Ведущий консультант*
***Электронная почта:*** gonul@mail.ru
*https://orcid.org/0009-0007-2311-3162*

# АНАЛИЗ СОСТОЯНИЯ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В АЗЕРБАЙДЖАНЕ НА СОВРЕМЕННОМ ЭТАПЕ

***Резюме:*** *На современном этапе развитие социальной инфраструктуры рассматривается как важный фактор социально-экономического прогресса страны. В статье анализируется текущее состояние социальной инфраструктуры в Азербайджане, рассматриваются достижения и существующие проблемы в сферах образования, здравоохранения, культуры, спорта и социальных услуг. В исследовании оценивается влияние проектов, реализуемых в рамках государственных программ, на укрепление материально-технической базы социальной инфраструктуры и повышение доступности услуг в регионах. Наряду с этим анализируются межрегиональные различия, неравенство в качестве услуг и существующие пробелы в применении цифровых сервисов. В статье подчеркивается, что для обеспечения устойчивого социально-экономического развития необходимо обновление социальной инфраструктуры на основе современных технологий и устранение региональных диспропорций.*

***Ключевые слова:*** *Социальная инфраструктура, уровень жизни, социальное обеспечение, общество, образование, бедность, социальная помощь.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 15.07.2024; çapa qəbul edilib – 28.09.2024.



KİTABXANA.AZ, 2024, oktyabr, №2(41), 35-46

HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ
**Ədəbiyyat. Dilçilik**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Literature. Linguistics
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Литература. Лингвистика***

**UOT/UDC/УДК** ***55:92(479.24)"1930/2023"*** DOI 10.5281/zenodo.17566062

**Zakirə İmamverdi qızı Əliyeva**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*Rəqəmsal ədəbiyyatşünaslıq, süni intellekt*
*və elektron xidmətlər şöbəsinin müdiri,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
***E-mail:*** zakiraaliyeva7@gmail.com
*https://orcid.org/0009-0005-0586-6211*

# AKADEMİK XOŞBƏXT YUSİFZADƏ - 95: REAL ŞƏXSİYYƏT OBRAZI

***Xülasə:*** *Məqalə akademik Xoşbəxt Yusifzadənin həyat yolu ilə, Bakı neftçisindən başlayaraq akademik səviyyəsinə qədər, Azərbaycan neft sənayesinin ən mühüm inkişaf mərhələləri ilə sıx bağlıdır. Onun tərcümeyi-halı elmi-nəzəri biliklər, kəşfiyyat-istehsalat təcrübələri, iqtisadi nailiyyətlər və ictimai-siyasi hadisələrlə zənginləşərək neft tarixinin əsas mərhələlərini əks etdirir.*

*Yusifzadənin intellektual irsi "Akademik Xoşbəxt Yusifzadə qiraətləri"ndə davam edir. AMEA prezidenti akademik İsa Həbibbəyli onun ədəbiyyat sevdalısı olduğunu vurğulayır. Gülhüseyn Hüseynoğlu, Süleyman Vəliyev, Eldar İsgəndərzadə, Cabbar Məmmədov, Xuraman İsmayılqızı, Oqtay Rza kimi şair və yazıçıların əsərlərində Yusifzadənin şəxsiyyət çalarları və bədii obrazı tamamlanır. Onun tarixi-publisistik tərəfləri isə akademik İsa Həbibbəyli, professor Asif Rüstəmli və Alxan Bayramoğlu kimi ədəbiyyatşünasların yaradıcılığında işıqlandırılır.*

*Azərbaycan neftçisinin rəmzinə çevrilən Yusifzadə ədəbiyyatımızın dərin bilicisi kimi Azərbaycan kişisinin bədii obrazı və simvolu statusunu qazanmışdır.*

***Açar sözlər:*** *Akademik Xoşbəxt Yusifzadə, qara qızıl, neftçi-alim, neft sənayesi, Xəzər dənizi.*

## GİRİŞ

XXI əsrin Müstəqil Azərbaycanı dünyada Qara qızıl səltənəti kimi tanınmaqdadır. Bakı dənizi fəth edənlər şəhəridir. Bakının füsünkar Xəzər dənizinin sahilləri boyunca səpələnmiş neftçıxarma qurğuları, buruqlar, əfsanəvi Neft Daşları, möhtəşəm neft-qaz sənayesi obyektləri, dünyanın magistral yollarına qovuşan neft və qaz kəmərləri şəbəkəsi böyük tarixi hadisələrin, iqtisadi yüksəlişlərin, əmək şücaətlərinin, elm və istehsalat uğurlarının, "Əsrin müqaviləsi" adlı zəfərin güzgüsüdür.

Qara qızıl Azərbaycan xalqının – milli mədəniyyət, tarixi-coğrafi varlıq, iqtisadi sərvət və eyni zamanda ədəbi-bədii yaddaş faktorudur. Qara qızılın təkrarolunmaz rəng çalarları, unikal enerji mənbəyi olması, ən müxtəlif elm sahələrini birləşdirən cazibə qüvvəsi onu sənət adamlarının, yaradıcı insanların ilham mənbəyinə çevirməyə bilməzdi. Təsadüfi deyil ki, rəssam Sabir Çopuroğlu barmaqları ilə neftlə heyrətamiz şəkillər çəkir və bunu həyatının məqsədinə çevirərək "Çünki neft XXI əsrin boyasıdır", – deyir.

## MÜZAKİRƏ

Qara qızılın iqtisadi, ticari, elmi mahiyyət daşıyan humanist missiyasını müasir dövrümüzdə ona sahiblik uğrunda dünyada gedən müharibələr, münaqişələr kölgədə qoymaqdadır. Belə bir dövrdə Azərbaycan neft sənayesinin tarixinə, inkişaf mərhələlərinə, bu sahədə çalışan dünya şöhrətli insanlarının həyat yoluna Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünalığı müstəvisindən baxılarsa, gözlərimiz qarşısında qara qızılı həyat kredosu seçmiş cəsur neftçilərimizin yaratdığı canlı tarixin bədii salnaməsi canlanar. Dünya şöhrətli neft tariximiz, alimlərimizin təhlil və tədqiqatları, kəşfiyyat və istehsalat təcrübələri, neftçıxarma cəbhəsinin, dənizi fəth edənlərin qəhrəmanlıq səhifələri, əmək şücaətləri ilə zəngin olan ədəbi-bədii epopeyalar silsiləsi filoloji tədqiqatların da obyektinə çevrilməkdədir. Azərbaycan poeziyasında, nəsrində, dramaturgiya və publisistikasında neft və cəmiyyət, neft və istehsalat, neft və bəşəriyyət, Azərbaycan neftçilərinin humanist missiyası bədii-sənədli, publisistik, elmi-nəzəri təfəkkür işığında təqdim edilir.

Bəli, bizdə neftə "qara qızıl" deyirlər *(Нефть, 2023).* Qızıl bərk metal və neft yanan maye olsa da, iki mineralın oxşar xüsusiyyətləri vardır. Neft qlobal enerji istehlakında enerji mənbəyi kimi, qızıl isə dünyada tanınan maliyyə aləti kimi lider mövqelərə malikdirlər. Adətən, insanlar üçün

yüksək dəyərli hesab etdikləri hər şey qızılla müqayisə edilir. Bacarıqlı əllərə də qızıl əllər deyilir. Həssas ürəkli, dürüst, ədalətli, cəsur, vicdanlı, bacarıqlı bir insanın xarakteri haqqında da "qızıl insan"dır deyirlər. Azərbaycanın özünəməxsus Qara qızıl tarixi və bu tarixə "Neft daşları" kimi möcüzələr adası adlı imzalar atan polad biləkli, "qızıl insanları" vardır.

Azərbaycan dünyanın siyasi və iqtisadi xəritəsindən baxılarsa, bir çox strateji yolların ayrıcındadır. Abşerondan, Xəzər dənizinin dərin laylarından hasil olan Bakı nefti – qara qızılı kəmərlərlə bu yollardan dünyanın müxtəlif ölkələrinə daşınır. Bakı həm də neft akademiyası sayılır. Yazıçı Süleyman Vəliyev hələ 70-ci illərdə yazırdı ki, "... Mən nəinki Sovetlər ölkəsində, hətta dünyanın bir çox yerində neft tapıldığını eşidəndə öz-özümə deyirəm ki, orada yəqin Bakı neftçisi olacaq".

Bakı neftçisi Xoşbəxt Yusifzadə ilə başlayan, bakılı akademik Xoşbəxt Yusifzadəyə qədər uzanan tale, ömür yolu da Azərbaycanın neft sənayesi tarixinin ən mühüm dövrləri və inkişaf mərhələlərinə təsadüf edir.

Azərbaycanın qara qızılla bağlı şanlı tarix səhifələrində Azərbaycan neft sənayesinin canlı ensiklopediyası, bu sahəyə böyük töhfələr vermiş alim, respublika dövlət mükafatları və Heydər Əliyev Mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidenti olmuş Xoşbəxt Bağı oğlu Yusifzadə (1930-2023) şəxsiyyətinin öz dəsti-xətti, öz möhürü vardır. Görkəmli akademikin bütün tərcümeyi-halı elmi-nəzəri biliklər, kəşfiyyat-istehsalat təcrübələri, iqtisadi göstəricilər, ictimai-siyasi hadisələr anlamlarında Azərbaycan neft tarixinin çox mühüm mərhələləri ilə bağlıdır.

***Xoşbəxt Yusifzadə tədqiqatları***

Xoşbəxt Yusifzadənin apardığı tədqiqatların nəticələri 200-dən artıq elmi əsərdə öz əksini tapmışdır. Neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi sahəsində 20 yatağın açılmasına rəhbərlik edən alimin neft emalı sənayesində ixtiraları respublika iqtisadiyyatına böyük səmərə gətirmişdir. Neftçi alimə Azərbaycan xalqının Ümummilli lideri böyük Heydər Əliyev və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə böyük neft strategiyaının reallaşmasında iştirak etmək nəsib olmuşdur.

Dövlət başçısı Heydər Əliyevlə görüşlərin birində Mendeleyevin, "neftdən yanacaq kimi istifadə etmək cinayətdir, o bir qızıldır" fikrini misal gətirən Xoşbəxt Yusifzadənin özünün də ömür yolunda bu "qara qızıllı bir tarixin" parlaq səhifələri, silinməz izləri vardır *(Heydər Əliyev, 2000).*

Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyev akademikin simasında xoşbəxtlik meyarını belə təqdim edirdi: “Xoşbəxtlik – insanlığın təsdiqidir. Xoşbəxtlik – həyatda mövqeyi olmaq, pozulmaz iz salmaqdır, xoşbəxtlik – səhər işə, axşamlar isə ailəyə tələsmək deməkdir. Nəhayət, xoşbəxtlik həm evdə, həm də bayırda sayılmaq, sevilməkdir. Xoşbəxt Yusifzadə belə xoşbəxt insanlardandır. Xoşbəxt Yusifzadə adı neftçiliyin bir növ sinoniminə çevrilmişdir. İstər dəniz olsun, istərsə quru, Xoşbəxt Yusifzadə zirvəsi hər yerdən görünməkdədir”.

Hələ yeniyetmə ikən, həvəskar aktyor kimi, ən böyük nailiyyəti Əbdürrəhim bəy Haqverdiyevin “Bəxtsiz cavan” əsərinin tamaşasında Fərhad rolu olmuşdusa, şair kimi “Mirzə Səfər” hekayəsinin qəhrəmanı olmaq, doğma kəndi Pirşağını tərənnüm etmək istəmişdi. Sonralar aktyor və şair olmasa da, şeir xiridarı, Azərbaycan poeziyasının pərəstişkarı və vurğunu kimi qalmışdı. Mütaliəyə həvəsi illər keçəndən sonra belə sönməmişdi: “Səməd Vurğunu oxuyanda vətənə, xalqa məhəbbətin birə on artır, Mirzə Ələkbər Sabiri oxuyanda inqilabdan əvvəl çarizmin və yerli bəylərin, xanların zülmü altında inləyən xalqın məşəqqətli həyatı gözlərin qarşısından acı bir səhnə kimi gəlib keçir. Nikolay Ostrovskinin romanları oxucunun iradəsini möhkəmləndirir, mübarizliyini artırır... Ordubadini oxuyanda isə həm tarixçiyə, həm siyasətçiyə, həm də milli-mədəni dəyərlərimizi yüksək qiymətləndirən şəxsə çevrilirsən. Məmməd Səid Ordubadinin “Gizli Bakı”, “Döyüşən şəhər”, “Qılınc və qələm”, “Dumanlı Təbriz” romanlarını mən ilk dəfə orta məktəbdə, sonra ali məktəbdə, daha sonra isə Neft Daşlarında oxumuşam”.

Gənc Xoşbəxt Yusifzadə kitabı ən yaxın dost və məsləhətçi hesab etmiş, M.F.Axundov, M.S.Ordubadi, Ə.B.Haqverdiyev, N.B.Vəzirov, S.S.Axundov, M.Ə.Sabir, C.Cabbarlı, S.Vurğun, N.Ostrovski, Viktor Hüqo, Cek London, Teodor Drayzer və digər ədiblərin əsərlərini sevə-sevə oxumuşdu və uşaqlıq dostu Arif Quliyevin ona həsr etdiyi şeirdəki Xoşbəxt ola bilmişdi:

*Mən sənin haqqında düşündüm belə,*
*Əzizlədim səni şeirlərimlə.*
*Hələ çox cavansan, ucalacaqsan,*
*Alimlik adı ilə qocalacaqsan.*
*Oxucum, sorsanız bəs nədir adı?*
*O, Xoşbəxtdir – elmdir daim muradı.*

Xoşbəxt Yusifzadə dünyasının düşüncələri, mütaliəsinin intellektual estafeti “Akakdemik Xoşbəxt Yusifzadə qiraətləri” timsalında davam etməkdədir. Azərbaycan Respublikası ETN Neft və Qaz İnstitutunun

təşkilatçılığı, SOCAR və BP şirkətlərinin sponsorluğu ilə görkəmli neftçi-geoloq, “Heydər Əliyev Mükafatı” laureatı, AMEA-nın həqiqi üzvü Xoşbəxt Yusifzadənin xatirəsinə həsr olunmuş “Xəzər regionunun neftqazlılığı və geoekoloji problemləri" mövzusunda “Xoşbəxt Yusifzadə qiraətləri” beynəlxalq elmi konfransı bu qəbildən mötəbər bir tədbir idi. Konfransda xatirələrini bölüşən AMEA prezidenti akademik İsa Həbibbəyli onun ədəbiyyat sevdalısı olduğunu, Səməd Vurğunun “Vaqif” dramını əzbərdən söylədiyinə şahidlik etdiyini bildirmişdir.

Əməkdar jurnalist Natiq Məmmədli yazır ki, akademikin şəxsiyyətinin bütün tərəflərini əks etdirmək, onu, hər şeydən əvvəl bir insan kimi tanıtmaq üçün “haqqında yazmaq istəyəndə İnternetdə axtarış verib faktlar toplamağa çalışdım. Qarşıma yalnız neft-qaz sektorunun inkişafını əks etdirən bitib tükənməyən rəqəmlər çıxdı”. Həqiqətən X.Yusifzadənin məqalələrində, müsahibələrində, mətbuata açıqlamalarında yalnız statistik rəqəmlər, faizlər – neftçıxarma sənayesi sahəsində aparılan proseslər, geoloji araşdırmalar və sairə görünür. Əslində isə “bitib tükənməyən bu rəqəmlər” Xoşbəxt Yusifzadə obrazının ciddiyyətinin çalarlarıdır *(Məmmədli, 2014).*

***Xoşbəxt Yusifzadənin fəaliyyəti***

Xoşbəxt Yusifzadənin həm elmi-texnoloji, həm də publisistik təfəkkürünün məhsulu olan əsərlərində Azərbaycanın yeni neft strategiyasının uğurlarını, bəzən də gərgin müzakirələrlə keçən dramatik səhnələrini izləmək olar. Dünyanın və Azərbaycanın məşhur dövlət xadimləri, görkəmli şəxsiyyətləri ilə görüşlərinin, xarici səfərlərinin maraqlı məqamlarının təfərrüatlarını və nəticələrini öyrənmək də mümkündür. Neftçi-alim əməyinin doğurduğu qürur və iftixar hissi ilə yazılmış bu əsərlərdə zəngin faktlar və hadisələr, həyat müşahidələri, təəssüratlar diqqəti cəlb edir *(Yusifzadə, 2010*).

Eyni zamanda bu əsərlər Xoşbəxt Yusifzadəni həyatı boyu Xəzərlə, dənizin təkindən qara qızıl çıxaran fədakar insanlarla bağlayan kəşfiyyatçı-geoloq, neftçi-geoloq, neftçi-alim, neftçi-ictimai xadim kimi tanıdır. Haqqında yazılan xatirələrdə, publisistik yazılarda, sənədli və bədii filmlərdə əksini tapan ömür yolunun səhifələri neft sənayesi tariximizin səhifələrinə çevrilir.

Xoşbəxt Yusifzadənin publisistik təhkiyəsində müəllifin özü Xəzərin dərinliklərindən yüksələn polad dirəklər üzərindəki estakadalar və fırtınaların, küləklərin bərkitdiyi polad iradəli bir insan obrazı görünür. Bu İnsan, nurlu ziyalı, qocaman neftçi-geoloq, sadə və cazibəli səmimiyyəti ilə seçilən, məzəli söhbətləri ilə həmsöhbətlərini fəth etməyi bacaran müdrik Molla Nəsrəddinçidir. Heç də təsadüfi deyil ki, Azərbaycan humanitar və

ictimai elmlərinə də daim öz töhfəsini verən, Molla Nəsrəddindən qaynaqlanan məzəli və müdrik söhbətlərilə yadda qalan alimin dəstəyi ilə Akademiyada "Molla Nəsrəddin lətifələri" (2018) kitabı da işıq üzü görüb *(Əlizadə, 2010)*.

Kitaba yazdığı "Bəşəri müdrikliyin Molla Nəsrəddin zirvəsi" adlı ön sözdə Molla Nəsrəddinin ilk növbədə dünya və türk dünyası yumorunda yerini və əhəmiyyətini izah edir. Molla Nəsrəddinin təkcə Azərbaycan xalqı deyil, Yaxın və Orta Şərqin bütün müsəlman xalqlarının ən məşhur lətifə qəhrəmanı kimi tanındığını, insanı güldürməklə həm dərs deyib, həm də düşündürdüyünü, müdrik təbəssümlə sanki bizim müasirimiz olduğunu diqqətə çəkir. Ən əsası isə bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlər kontekstində insanlığa çıxış yollarını göstərdiyini, ekosistem və sosial sistem arasında harmoniya yarada bilən fəlsəfi modellər təqdim etmək səlahiyyətinə malik olduğunu xüsusi qeyd edir.

Göründüyü kimi, müəllifin ədəbiyyata, incəsənətə marağını, vurğunluğunu əks etdirən elmi-publisistik əsərləri, akademik əsərləri kimi maraqlı fikir və ideyaları ilə diqqəti cəlb edir.

Bu böyük İnsan, Həbib Bayramovun tar təranələrindən, bəstəkar Arif Məlikovun əsərlərindən, Rəşid Behbudovun mahnılarından zövq alan həssas və sevgi dolu bir qəlb sahibidir. Bu İnsan, könlüncə olan melodiyaları özünəməxsus tərzdə zümzümə edən poetik ruhlu akademik Xoşbəxt Yusifzadədir.

*Çəkirəm dənizə polad yolları,*
*Buruqlar sularda düzüm düzümdür.*
*Uzanan bu yollar mənim qollarım*
*Buruqlar səmaya baxan gözümdür.*
*Düşürəm yollarda tufana da mən*
*Kolumblu inadım tutur əlimdən.*
*Hərən zarafatla soruşur dostlar:*
*Nə vaxt Kolumbluğun qurtaracaqdır?*
*Sənin kəşf etdiyin neçə ada var*
*Dəniz qoynundasan elə haçandır!*
*Mən öz səfərimin nəhayətini*
*Görmürəm, yollara baxsam da bəzən.*
*Dəlisoy Xəzərə səyahətimi*
*Sanıram lap bu gün başlamışam mən.*
*Sanıram nə qədər qitələr hələ*
*Gərək kəşf olunsun mənim əlimlə!*

Əliağa Kürçaylının qəhrəman dəniz neftçilərinə həsr etdiyi “Bakılı Kolumb” poemasından gətirdiyimiz bu sətirlərin arxasında Xoşbəxt Yusifzadə şəxsiyyətinin bir obraz kimi çalarlarını görməmək mümkün deyil *(Kürçaylı, 1973).*

Alim özü bu haqda xatirələrində yazır: “Həyatda elə insan olmaz ki, bütün istəklərinə nail olsun. Amma o istiqamətdə çalışanda nəticə əldə etmək mümkün olur. Məsələn, məni institutda, aspiranturada saxlamışdılar, dedilər atan tutulub, Moskva icazə vermir. Getdim Neft Daşlarına. Qarşıma vəzifə qoydum ki, madam orada məni müdafiə etməyə qoymadılar, burada müdafiə edəcəyəm. Elə ordaca elmi işlərlə məşğul oldum. 60-cı ildə elmlər namizədi oldum...”.

Artıq gənc alim neft geologiyasının ən müxtəlif sahələrinə dair problemlərin elmi həllində, müvafiq mühüm qərarların qəbul edilməsində söz sahibi olmaq kimi etibar qazanmışdı. Bu illərin və hadisələrin müxtəlif mənzərələri, neftçilərin gərgin əmək fəaliyyətindən və şəxsi həyatlarından fraqmentlər yazıçı Gülhüseyn Hüseynoğlunun 1957-ci ildə qələmə aldığı “Xəzərin qoynunda” sənədli povestində öz canlı əksini tapmışdır *(Hüseynoğlu, 2013).*

“Axşam səkkizin yarısında Xoşbəxtə zəng oldu. O, nigarançılıq içində dəstəyi götürdü. Zəng edən “Gürganneft” Neft Mədənləri idarəsinin baş mühəndisi Bəhmən Hacıyev idi.

– Xoşbəxt salam. Dəhşəti görürsən də. “Daşlar”da olan işçilərinizi səfərbər elə tez. Mədəninizin quyularının ağzını bağlamaq lazımdır. Vəziyyət çox ağırdır. Kaveroçkinin, Süleyman Bağırovun briqadaları, bilirsən də, ayrıca özüllər də təhlükə qarşısında Xəzərlə əlbəyaxadırlar...”

Xəzərdə fırtınalı gecədə X.Yusifzadənin başçılığı ilə neftçilərin göstərdiyi şücaət səhnələrini həyəcansız oxumaq mümkün deyil: Nəzərlər “Gürganneft” Neft-Mədən İdarəsinin baş geoloqu X.Yusifzadəyə zilləndi. Axı son sözü o deməliydi”.

Əsərdə “idarə masasında deyil, həmişə mədəndə, buruqlar arasında olan “Gürganneft” Neft Mədənlər İdarəsinin baş geoloqu X.Yusifzadənin” mürəkkəb məsələlərin həllində və çətin vəziyyətlərdə qəbul etdiyi qərarların əhəmiyyəti, yenilikçi gəncləri himayə etməsi, neftçilətrlə dostluq münasibətləri, ilk sevgi həyəcanları kimi real həyat hadisələri öz əksini tapmışdır.

22 yaşından bəri neft sənayesində çalışan, onun 10 ilini Neft Daşlarında işləyən, demək olar ki, Xəzər dənizində çoxsaylı neft yataqlarının işlənməsində iştirak və rəhbərlik edən və bütün yataqları ovcunun içi kimi bilən Xoşbəxt Yusifzadəni bir peşəkar mütəxəssis kimi

gözəl xaraterizə edən bir məşhur cümlə var: "Xoşbəxt Yusifzadə xəritədə əlini hara qoysa, ordan neft çıxar".

Alim-neftçinin təvazökarlığı isə xüsusi qeyd edilməlidir: "Deyirlər, 20 yataq açmışam. Bir adam təkbaşına yataq aça bilməz. Sadəcə elə vəzifədə işləmişəm ki, axırıncı söz məndə olub. Son nöqtəni mən qoymalı olmuşam. Ona görə istər-istəməz rəhbərliyim, tapşırığım altında kəşf olunub. O yataqları bilməyim imkan verirdi ki, nəticəni əvvəldən təxmin edim".

Xarakter insanın sabit keyfiyyətidir. Şəxsi intellektual biliklərə dayanan davranış, düşüncə tərzi, qərarvermə məharəti, ünsiyyət cazibəsi, şəxsi mövqe, şəxsi imic və s. bütün bu formulalar X.Yusifzadə real obrazının müəyyən cəhətlərinin göstəricisidir.

Gülhüseyn Hüseynoğlu, Süleyman Vəliyev, Eldar İsgəndərzadə, Cabbar Məmmədov, Xuraman İsmayılqızı, Oqtay Rza kimi şair və yazıçıların yaradıcılığında Xoşbəxt Yusifzadə şəxsiyyətinin çalarlarının onun bədii obrazını tamamladığını görürürk.

Xoşbəxt Yusifzadə obrazının tarixi-publisistik çalarlarını isə akademik İsa Həbibbəyli, professor Asif Rüstəmli, professor Alxan Bayramoğlu kimi ədəbiyyatşünas alimlərin yaradıcılığında görmək olar.

## NƏTİCƏ

İstər elmi-təcrübi, istər istehsalat, istərsə də ictimai fəaliyyətində neftçi-alim olaraq Xoşbəxt Yusifzadə öz baxış müstəvisinə və əqidəsinə malik bir insandır. O, ictimai münasibətlərdə özünəməxsus bütövlüyü, dürüstlüyü ilə seçilən, müsbət enerjili sosial-psixoloji keyfiyyətlərə malik vətəndaş, çıxılmaz vəziyyətlərdən çıxış nöqtəsi tapan, qərarlar verən, mürəkkəb prosesləri idrakı ilə idarə etməyi bacaran peşəkar neftçi-geoloqdur.

Akademik X.Yusifzadə yaşadğı faciələrə rəğmən polad iradəli, ürəyi sevgi dolu poetik ruhlu Azərbaycanlıdır. O, nəinki ətrafındakı insanların qayğılarına, bəşəriyyətin əmin-amanlığına həssaslıqla yanaşan, bu haqda düşündürücü mövqeyi ilə fərqlənən insandır. Hörmətli akademik X.Yusifzadə bəşəriyyətin gələcəyi haqda belə düşünürdü: "Əgər biz camaat bir-birimizi indi məhv etməsək, bəlkə 40-50 ildən sonra neft ancaq dərmana lazım olacaq. Yəni dünyada o qədər yeni alternativ üsullar, enerjilər yaranacaq ki, bəlkə də neft ancaq təbabət üçün lazım olacaq...". Mendeleyevin "neftdən yanacaq kimi istifadə etmək cinayətdir. O bir qızıldı" fikrini xüsusi qeyd edən akademik müasir dövrümüzdə iqtisadi, kommersiya və biznes xarakteri daşıyan qara qızılın humanist missiyasını belə ifadə edirdi.

“Dəniz, dəniz, ay dəniz... ana Xəzər... etibarlı yoldaş, sədaqətli dost olan Xəzər... 90 ildir ki, Xoşbəxt müəllimlə yol yoldaşısınız... Sənin kitab kimi varaqlanan dalğalarında, səhifə ləpələrində yazılıb onun həyatının acılı-şirinli, enişli-yoxuşlu hər günü... Sən onun zəhmətini sularında qərq etmədin yox... əksinə, alın tərinin hər zərrəsini bir uğura çevirdin, şöhrətindən şöhrət, hörmətindən hörmət verdin ona... Sən onun əsas həyat amalına çevrilən “zəhmətin heç zaman itməməsi”nin ən böyük həqiqət olduğunu sübut etdin... Sən, məhz sən onu Azərbaycan neftçisinin canlı obrazına, rəmzinə çevirdin...” *(Qurban, 2023).*

Əbəs yerə deyil ki, akademik Xoşbəxt Yusifzadə də dənizdəki neft və qaz-kondensat yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsinin aktual problemlərinə dair fundamental elmi tədqiqatlara, Xəzər dənizində neft və qaz yataqlarının tədqiqi və böyük elmi tədqiqatlara, Azərbaycanda neft sənayesinin inkişafına verdiyi töhfələrə görə “Nizami Gəncəvi adına Qızıl medal”a layiq görülüb. Azərbaycan neftçisinin rəmzinə çevrilən Xoşbəxt Yusifzadə ədəbiyyatımızın gözəl bilicisi olmaqla yanaşı, ədəbiyyatımızda Azərbaycan kişisinin bədii obrazı və simvolu olmuşdu.

2015-ci ildə Azərbaycan Neft Şirkətinin sabiq birinci prezidenti Xoşbəxt Yusifzadənin 85 illik yubileyi münasibəti ilə fədakar neftçi-geoloqun ömür yollarını canlandıran “Fədakar” sənədli filmi çəkilmişdi. Ssenarisi akademikin müəllifi olduğu “Ömrün yolları və izləri” kitabının epizodları əsasında işlənilmiş bu film Azərbaycanın neft tarixində “qara qızılla” yazılan bir xoşbəxtlik salnaməsidir. Həyatdakı missyasını layiqincə yerinə yetirən, Azərbaycan elminə böyük töhfələr verən, ixtiraları ilə zənginləşdirən, neftçi-geoloqlar məktəbinin təməlçilərindən olan azərbaycanlı bir ziyalı şəxsiyyəti tanıtmaq üçün bu film çox gərəkli informativ resursdur. “Fədakar”ın unudulmaz epizodları, detallı, real hadisə və faktları ehtiva edən məziyyətləri filmə tarixi epopeya məzmunu verir və tamaşaçı sevgisini artırır. Bu ekran əsərində həm də bir Azərbaycan kişisinin böyük obrazı canlandırılıb.

Bu obraz maraqlı intellekt koeffisientinə, özünəməxsus kreativ düşüncə tərzinə, təcrübə ilə təsdiqlənən təfəkkürə, ünsiyyət xüsusiyyətlərinə, fenomenal yaddaşa malik, mənsub olduğu xalqın mədəniyyətinə, milli ənənələrə ehtiramı ilə seçilən, müdrik, xeyirxah, dostluqda sədaqətli, gəncliyi sevən, zəhmətkeş və qürurlu ziyalı azərbaycanlı kişisi obrazıdır.

Müstəqil Azərbaycanın yeni neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində xidmətləri ilə tarixdə iz qoymuş akademikin neft və qaz sənayesinin aktual problemlərinin həllinə dair elmi araşdırmaları bu gün də öz əhəmiyyətini saxlayan qiymətli elmi mənbələr hesab olunur.

## ƏDƏBİYYAT

*Əlizadə, A. (2010).* Xəzər neftinin yorulmaz tədqiqatçısı. "Azərbaycan" qəzeti, 14 yanvar.

*Hüseynoğlu, G. (2013). "*Xəzərin sahilində". "İki damla göz yaşı". Seçilmiş əsərləri. Bakı, 290 s.

*Kürçaylı, Ə. (1973).* Həyatın dolayları: şeirlər və poemalar. Bakı: Azərnəşr, 232 s.

*Qurban, C. (2023).* Akademik Xoşbəxt Yusifzadəin xatirəsinə. "Xalq qəzeti", 16 noyabr.

*Məmmədli, N. (2014).* Pir oğlu və ya Azərbaycanın xosbəxti. Kaspi, 17 sentyabr, s. 8-9.

*Neftçi-geoloq Xoşbəxt Yusifzadəyə Azərbaycan Prezidenti Heydər Əliyevin təbrik məktubu - 13 yanvar 2000-ci il. (2000).* İstifadə edilmişdir: 25 avqust, 2024 (https://lib.aliyevheritage.org/az/6872341.html).

*Yusifzadə, X. (2010).* Ömrümün illəri və izləri. Yenidən işlənmiş 2-ci nəşri, əlavələrlə. Bakı: "OSKAR" NPM, 284 s.

*Нефть – это краска XXI века! (2023).* İstifadə edilmişdir: 15 sentyabr, 2024 (https://caspianoilgas.az/ru/news/neftx--to-kraska-hhi-veka-8391).

**Zakira Imamverdi gizi Aliyeva**
*Institute of Literature named after Nizami Ganjavi of Azerbaijan National Academy of Sciences,*
*Head of the Department of Digital Literary Studies, Artificial Intelligence and Electronic Services*
*PhD in Philology, Associate professor*
***E-mail:*** zakiraaliyeva7@gmail.com
*https://orcid.org/0009-0005-0586-6211*

## ACADEMICIAN KHOSHBAKHT YUSIFZADE - 95: THE IMAGE OF A REAL PERSONALITY

***Abstract:*** *The article is closely linked to the life of Academician Khoshbakht Yusifzade – from a Baku oil worker to an academician – and*

*the most important stages in the development of the Azerbaijani oil industry. His biography is enriched with scientific and theoretical knowledge, exploration and production experience, economic achievements, and socio-political events, reflecting the main stages in the history of the oil industry.*

*Yusifzade's intellectual legacy is continued in the "Readings of Academician Khoshbakht Yusifzade". ANAS President and Academician Isa Habibbayli emphasizes that Yusifzade was a lover of literature. The tone of Yusifzade's personality and artistic image is complemented by the works of poets and writers such as Gulhuseyn Huseynoglu, Suleyman Veliyev, Eldar Iskenderzade, Jabbar Mammadov, Khuraman Ismailgizi, and Ogtay Rza. Its historical and journalistic aspects are illuminated in the works of literary scholars such as Academician Isa Habibbayli, Professor Asif Rustamli, and Alkhan Bayramoglu.*

*Yusifzade, who became a symbol of the Azerbaijani oil industry, acquired the status of an artistic icon and a symbol of the Azerbaijani people as a profound connoisseur of our literature.*

***Keywords:*** *Academician Khoshbakht Yusifzade, black gold, oilman-scientist, oil industry, Caspian Sea.*

**Закира Имамверди кызы Алиева**
*Институт литературы имени Низами Гянджеви*
*Национальной академии наук Азербайджана,*
*Заведующий отделом цифрового литературоведения,*
*искусственного интеллекта и электронных услуг*
*Кандидат филологических наук, доцент*
***Электронная почта:*** zakiraaliyeva7@gmail.com
*https://orcid.org/0009-0005-0586-6211*

## АКАДЕМИК ХОШБАХТ ЮСИФЗАДЕ - 95: ОБРАЗ РЕАЛЬНОЙ ЛИЧНОСТИ

***Резюме:*** *Статья тесно связана с жизненным путем академика Хошбахта Юсифзаде – от бакинского нефтяника до академика, – и важнейшими этапами развития азербайджанской нефтяной промышленности. Его биография обогащена научно-теоретическими знаниями, опытом разведки и добычи, экономическими достижениями и общественно-политическими событиями, отражающими основные этапы истории нефтяной промышленности.*

*Интеллектуальное наследие Юсифзаде продолжается в*

*«Чтениях академика Хошбахта Юсифзаде». Президент НАНА, академик Иса Габиббейли, подчёркивает, что он был любителем литературы. Тональность личности и художественного образа Юсифзаде дополняются произведениями таких поэтов и писателей, как Гюльгусейн Гусейноглу, Сулейман Велиев, Эльдар Искендерзаде, Джаббар Мамедов, Хураман Исмаилгызы, Огтай Рза. Его историко-публицистические аспекты освещены в трудах таких литературоведов, как академик Иса Габиббейли, профессор Асиф Рустамли и Алхан Байрамоглу.*

*Юсифзаде, ставший символом азербайджанского нефтяника, обрел статус художественного образа и символа азербайджанского человека как глубокого знатока нашей литературы.*

***Ключевые слова:*** *Академик Хошбахт Юсифзаде, черное золото, ученый-нефтяник, нефтяная промышленность, Каспийское море.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 20.08.2024; çapa qəbul edilib – 24.09.2024.



## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

*"Kitabxana.az" jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:*

1. Məqalənin adı, müəllifin adı və soyadı, çalışdığı qurum, vəzifəsi, elmi dərəcəsi, elektron poçt ünvanı və ORCID (2012-ci ildən bəri beynəlxalq elm aləmində qəbul edilmiş internetdə hərkəsə açıq olan Tədqiqatçı və İştirakçı Eyniləşdiricisi) göstərilməlidir.
2. Məqalə azərbaycan, ingilis və rus dillərində qəbul olunur.
3. Məqalə 50 sözdən artıq olmayan xülasəyə, 4-dən az olmayan açar sözə malik olmalıdır.
4. Məqalə A4 formatında, Microsoft Word proqramında (şrift - Times New Roman – 12; interval - 1,5; səhifənin parametrləri: yuxarıdan – 2 sm, aşağıdan – 2 sm, soldan - 2,5 sm, sağdan – 2,5 sm) yığılmalıdır.
5. Əgər mətndaxili sitatlar təkmüəllifli əsərə istinad edirsə: Müəllifin soyadı (insialsız) və nəşr ili kursivlə qeyd olunmalıdır, məsələn, *(Əliyev, 2020)*.
   Mətndaxili sitatlar ikimüəllifli əsərə istinad edirsə: Hər iki müəllifin soyadı və nəşr ili kursivlə yazılmalıdır, məsələn, *(Əliyev & Məmmədov, 2021)*.
   Çoxmüəllifli əsərə istinad olunursa: Əgər əsərin ikidən çox müəllifi varsa, kursivlə birinci müəllifin soyadı, ardınca isə "et al." (lat. və digərləri) qeyd olunmalıdır, məsələn, *(İslamova et al., 2022)*.
6. Ədəbiyyat (istinad) siyahısında son 5-10 il ərzində nəşr olunmuş elmi əsərlərə istinad edilməsi tövsiyə olunur.
   İstinad siyahısı Amerika Psixoloji Assosiasiyasının (APA) üslublu sənəd təsviri qaydalarına uyğun hazırlanmalıdır.
   İstinad siyahısı əlifba sırası və yaxud istifadə olunma ardıcıllığına görə sıralanmalıdır.
7. Jurnala təqdim olunan məqalələr:
   - əvəllər dərc olunmamalı;
   - heç bir digər jurnala dərc olunmaq üçün təqdim edilməməlidir.
8. Məqalənin dərc olunmaq üçün qəbul edilib-edilməməsi məsələsi redaksiya heyətinin müzakirəsindən sonra bəlli olur.
9. Əlyazmanın məzmunu və yazılışı üçün yalnız müəlliflər cavabdehlik daşıyırlar.
10. Müəlliflər məqalələri elektron şəkildə shafaq.ace@gmail.com ünvanına göndərə bilərlər.

## ATTENTION TO AUTHORS!

*Scientific articles submitted to the editorial office of the journal "Kitabxana.az" must be compiled taking into account the following rules:*

1. It is necessary to indicate the title of the article, the first and last name of the author, institution, position, academic degree, e-mail address and ORCID.
2. The article is accepted in Azerbaijani, English and Russian.
3. The article should contain an abstract of no more than 50 words and no less than 4 keywords.
4. The article should be written in A4 format, in Microsoft Word (font - Times New Roman - 12; spacing - 1.5; page settings: top - 2 cm, bottom - 2 cm, left - 2.5 cm, right - 2.5 cm).
5. If in-text citations refer to a single author: The author's last name (without initials) and year of publication should be written in italics, e.g., *(Aliyev, 2020)*.
   Two authors: Both authors' last name and year of publication should be written in italics, e.g., *(Aliyev & Mammadov, 2021)*.
   More than two authors: If the reference has more than two authors, the first author should be listed in italics, followed by "et al.", e.g., *(Islamova et al., 2022)*.
6. It is recommended to indicate scientific works published in the last 5-10 years in the list of references.
7. Articles submitted to the journal:
   - earlier should not be published anywhere;
   - should not be submitted for publication in any other journal.
8. The issue of accepting an article for publication becomes clear after discussion by the editorial board.
9. The authors are solely responsible for the content and writing of the manuscript.
10. Authors may submit articles electronically to shafaq.ace@gmail.com.

## ВНИМАНИЕ АВТОРАМ!

*Научные статьи, представляемые в редакцию журнала «Kitabxana.az», должны быть составлены с учетом следующих правил:*

1. Необходимо указать название статьи, имя и фамилию автора, учреждение, должность, ученую степень, адрес электронной почты и ORCID (открытый для всех в интернете Идентификатор Исследователя и Участника, принятый в международном научном мире с 2012 г.).
2. Статья принимается на азербайджанском, английском и русском языках.
3. В статье должно быть резюме не более 50 слов и не менее 4 ключевых слов.
4. Статья должна быть написана в формате A4, в программе Microsoft Word (шрифт - Times New Roman - 12; интервал - 1,5; параметры страницы: сверху - 2 см, снизу - 2 см, слева - 2,5 см, справа - 2,5 см).
5. Если внутритекстовые цитаты относятся к одному автору: Фамилия автора (без инициалов) и год публикации должны быть написаны курсивом, например, *(Алиев, 2020)*.
   Два автора: Фамилия обоих авторов и год публикации должны быть написаны курсивом, например, *(Алиев & Мамедов, 2021)*.
   Более двух авторов: Если в ссылке более двух авторов, курсивом следует указать первого автора, а затем «et al.» (лат. и др.), например, *(Исламова et al., 2022)*.
6. Рекомендуется указывать в списке литературы научные работы, опубликованные за последние 5-10 лет.
   Список литературы должен быть подготовлен в соответствии с правилами описания документов в стиле «APA», разработанными Американской психологической ассоциацией.
   Список литературы должен быть составлен в алфавитном порядке или в порядке использования.
7. Статьи, представленные в журнал:
   - ранее нигде не должны быть опубликованы;
   - не должны быть представлены для публикации в какой-либо другой журнал.
8. Вопрос о принятии статьи к публикации становится ясным после обсуждения на редколлегии.
9. Авторы несут полную ответственность за содержание и написание

рукописи.

10. Авторы могут отправлять статьи в электронном виде по адресу shafaq.ace@gmail.com.

# M Ü N D Ə R İ C A T

## *KİTABXANA İŞİNİN TARİXİ*

**Şəfəq İSLAMOVA**
Ənənədən rəqəmsallığa: kitabxanaların tarixi inkişaf yolu .................... 5

## *HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ*

**Vəfa HƏŞİMOVA, Kənan SÜLEYMANOV**
Azərbaycanda kinematoqrafiya müəssisələrinin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri................................ .14

**Konül MƏMMƏDOVA**
Müasir mərhələdə Azərbaycanda sosial infrastrukturun mövcud vəziyyətinin təhlili......................................................................... 23

**Zakirə ƏLİYEVA**
Akademik Xoşbəxt Yusifzadə - 95: real şəxsiyyət obrazı .................... 35

# C O N T E N T S

=====================================================

### *HISTORY OF LIBRARIANSHIP*

**Shafag ISLAMOVA**
From tradition to digitalization: the historical evolution of libraries.......5

### *HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES*

**Vafa HASHIMOVA, Kenan SULEYMANOV**
Directions for improving the management mechanisms of cinematography institutions in Azerbaijan ........................................ ...14

**Konul MAMMADOVA**
Analysis of the current state of social infrastructure in Azerbaijan at the modern stage ........................................................................... 23

**Zakira ALIYEVA**
Academician Khoshbakht Yusifzade - 95: the image of a real personality........................................................................................ 35

# С О Д Е Р Ж А Н И Е

=============================================================

***ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА***

**Шафаг ИСЛАМОВА**
От традиции к цифровизации: историческое развитие библиотек .. 5

***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***

**Вафа ГАШИМОВА, Кенан СУЛЕЙМАНОВ**
Направления совершенствования механизмов управления кинематографическими учреждениями в Азербайджане ............... 14

**Конуль МАМЕДОВА**
Анализ состояния социальной инфраструктуры в Азербайджане на современном этапе ......................................................................... 23

**Закира АЛИЕВА**
Академик Хошбахт Юсифзаде - 95: образ реальной личности…...35

# KİTABXANA.AZ

elmi-nəzəri və təcrübi jurnal

***2024, Oktyabr, №2(41)***

* * *

**VÖEN:** 1600740921

**Təsisçi  və baş redaktor:** İslamova Şəfəq İsrafil qızı

**Redaktor:** Məmmədov Eldəniz Elman oğlu

**Redaksiyanın ünvanı:** AZ1096, Bakı ş., K.Balakişiyev küç. 161/15

**Tiraj:** 100 nüsxə

**Qiyməti:** Pulsuz